Xalqın qəzeti!

# Xalq qəzeti

№ 142 (30546) 10 iyul 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Milli neft strategiyası tərəqqinin lokomotividir

## "Abşeron" yatağının 1 yaşı tamam oldu





**Bu gün Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" qaz-kondensat yatağının istismara verilməsinin 1 ili tamam olur. Xatırladaq ki, 2023-cü il iyulun 10-da "TotalEnergies" şirkəti və onun tərəfdaşı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) Xəzər dənizində, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsi üzrə hasilata başlandığını rəsmən elan etmişdilər.**

Bu, Azərbaycanın energetika sektorunda daha mühüm bir hadisənin başlanması demək idi. Çünki "Abşeron" "Şahdəniz"dən sonra beynəlxalq saziş çərçivəsində SOCAR-ın xarici tərəfdaşları ilə birgə istismarına başladığı ikinci ən böyük qaz-kondensat yatağıdır. Yeri gəlmişkən, SOCAR-ın Bakı Enerji Həftəsi çərçivəsində keçirilən "Caspian Oil&Gaz" neft-qaz sərgisində açıqladığı məlumata əsasən, "Abşeron" yatağında hasilata başlanıldığı vaxtdan cari il mayın 1-dək 1,2 milyard kubmetr qaz və 484 min ton kondensat hasil olunub. Məlumatda, həmçinin qeyd olunur bu il "Abşeron" yatağından 1,5 milyard kubmetr qaz və 523 min ton qaz kondensatın hasil ediləcəyi gözlənilir.

Yatağın birinci işlənmə mərhələsi çərçivəsində istismar olunan sualtı hasilat quyusu SOCAR-ın Neft Daşlarındakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirilib. Quyunun hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edır. "Abşeron" qazının Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

(ardı 7-ci səhifədə)

# Azərbaycan – İran münasibətləri inkişaf etdiriləcək



**İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.**

Dövlətimizin başçısı Məsud Pezeşkianı İran İslam Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Məsud Pezeşkian göstərilən diqqətə və təbrikə, həmçinin Prezident seçilməsi münasibətilə dövlətimizin başçısının daha əvvəl göndərdiyi məktuba görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. İran Prezidenti gələcəkdə də ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini deyib.

Söhbət zamanı ortaq dini-mədəni köklər, dostluq və qardaşlığa əsaslanan Azərbaycan-İran əlaqələrinin bundan sonra da genişlənəcəyinə və müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişaf edəcəyinə əminlik ifadə olunub.

Dövlət başçıları ölkələrimiz arasında indiyədək əldə edilmiş razılaşmaların həyata keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Telefon söhbəti əsnasında Azərbaycan və İran prezidentləri qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Məsud Pezeşkianı ölkəmizə səfərə dəvət edib.

Dəvəti məmnunluqla qəbul edən İran Prezidenti dövlətimizin başçısına minnətdarlığını bildirib və öz növbəsində, Azərbaycan Prezidentini İran İslam Respublikasına rəsmi səfərə dəvət edib.

Dövlətimizin başçısı bu dəvəti məmnunluqla qəbul edib.

***Prezidentin Mətbuat Xidməti***

## Mərkəzi Seçki Komissiyasının iclası



Səhifə ⇨ 6

## NATO doğru seçim etməlidir



Səhifə ⇨ 4

## Qarabağ Universiteti – xalqımıza Zəfər töhfəsi



Səhifə ⇨ 9

## Sautgeyt və Deşamın strategiyası futbolu gözdən salır



Səhifə ⇨ 12

# "Rubinologiya"

## *Azərbaycana mesaj məntiqi və "yuyulmamış çömçə"lik*



**Dünyanın, o cümlədən ABŞ-nin bəzi ekspert dairələrinin Azərbaycan–Ermənistan münasibətləri və ölkələr arasındakı sülh gündəmi ilə bağlı fikirlərini nəzərdən keçirəndə heyrətlənməyə bilmirsən. Düşünürsən: görəsən, bu dairələri təmsil edən şəxslər hər gün nə yeyib, nə içirlər? Nə ilə bəslənirlər ki, dillərinə misli görünməmiş cəfəngiyyatları gətirə bilirlər? Ancaq bir qədər soyuq başla fikirləşəndə mənzərə tam aydın olur. Bəli, belələri ortaya heç də təsadüfən düşmürlər. Onları işə salanlar, əsəbləri tarıma çəkənlər, ən əsası isə Cənubi Qafqazın Azərbaycan tərəfindən haqlı olaraq diktə edilən sülh gündəminə qarşı çıxmağı hədəfləyənlər var.**

Əlqərəz, "yuyulmamış çömçə"lərdən biri də amerikalı politoloq Maykl Rubindir. Hesab edirik ki, M.Rubin "Washington Examiner" jurnalında qatı ermənipərəst məqalə yayımlamaqla, digər cəfəngiyyat daşıyıcılarını, müəyyən mənada, geridə qoymağı bacarıb. Əlbəttə ki, özünün həyasızlığı ilə. Onun nə çərənlədiyinə diqqət yetirəcəyik. Amma üzərində dayanmağı vacib saydığımız bir məqam var.

Məlum olduğu kimi, son vaxtlar ABŞ Bakı–İrəvan sülh gündəmi ilə bağlı canfəşanlıq edir. Bu aktivlikdə başlıca məqam iki Cənubi Qafqaz ölkəsi arasında barışın əldə olunmasıdır. Hər halda görüntü budur. Eyni zamanda, Birləşmiş Ştatlar sülhə çatma trayektoriyasını gizlətmir – bir tərəfdən ölkələrin ərazi bütövlüyü və suverenliyi məntiqindən, başqa bir yandan isə qlobal tranzitdən söz açır. O tranzitdən ki, kollektiv Qərb Ermənistanın orada əsas aktor kimi iştirakına səy göstərir. Hərçənd, bu məqsədin pərdələndiyi, daha doğrusu, üzərindən keçildiyi nəzərdən yayınmır. Belə nəticəyə gəlirik ki, Vaşinqton regionda sülhün yaranması üzərinə fokuslanır, ancaq prosesin təfərrüatlarından uzaq durur, yaxud uzaq durmuş kimi görüntü yaradır. Yalnız bir məramı açıqlayır ki, o da Rusiyanın Cənubi Qafqazdan sıxışdırılmasıdır...

Amma Azərbaycanın öz tələbləri var. Başlıca tələb isə budur ki, ABŞ-nin nəzərində tutduğu qlobal tranzitin mühüm halqası olan Naxçıvana yol "Azərbaycandan Azərbaycana yol" məntiqinə əsaslansın. Yəni, həmin yolda heç bir sərhəd və gömrük nəzarəti tətbiq edilməsin. ABŞ-da, o cümlədən kollektiv Qərbdə yaxşı dərk edirlər ki, Ermənistan bununla razılaşmır, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən boyun qaçırır.

İndi necə başa düşək? Düşünək ki, Vaşinqton rəsmi İrəvanı razı salmaq əvəzinə, rubinləri ortaya atır? Özü də erməni avantürizminin "Qarabağ identikliyi" məntiqini qabartmaqla? Görəsən, ABŞ-da bu saxta məqam nə üçün qabardılır? Düşünə bilərik ki, Azərbaycana təxminən belə bir mesaj verilir: Qarabağı istəmişdin, artıq ərazi sənindir, bundan sonrası ilə işin olmasın. İşin olacaqsa, rubinkimilər danışacaqlar. Nəzərə alaq ki, belələrinin dediklərinin sonradan Ağ evin rəsmi mövqeyinə çevrildiyinin şahidi az olmamışıq.

Bəli, amerikalı politoloq M.Rubin Qarabağla əlaqədar uydurma "erməni bağlılığını" qabartmaq üçün meydandadır. Proses Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatlarına da sərfəlidir. Onların zaman-zaman Bakı–İrəvan ziddiyyətləri kontekstində Vaşinqtonu günahlandırdıqlarını görmüşük və demək olmaz ki, məsələ təsirsiz ötüşüb. Eləcə də yuxarıda haqqında söz açdığımız Azərbaycana mesaj motivi də aktuallığını saxlayır.

(ardı 3-cü səhifədə)

# Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, rəqabət və istehlakçıların hüquqlarının qorunması sahələrində idarəetmənin təkmilləşdirilməsini, görülən işlərin səmərəliliyinin artırılmasını, habelə vahid informasiya sistemi üzərindən xidmətlər göstərilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Elektron Rəqabət İnformasiya Sistemi (bundan sonra – ERİS) yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. ERİS rəqabət və istehlakçıların hüquqlarının müdafiəsi sahələrində istehlakçıların və bazar subyektlərinin müraciətlərinin (vəsatətlərinin) qəbulunu, emalını, onlara əlavə edilməli olan sənədlərin və ya məlumatların real vaxt rejimində digər dövlət orqanlarından (qurumlarından) sorğu əsasında əldə olunmasını, həmin müraciətlərə (vəsatətlərə) dair qərarların və məlumatların elektron qaydada təqdim edilməsini, habelə qeyd olunan sahələrdə məlumatların istifadəçilər üçün əlçatanlığını təmin edir;

2.2. ERİS-in sahibi funksiyalarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, operatoru funksiyalarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti həyata keçirir;

2.3. ERİS-in yaradılması və saxlanılması ilə bağlı xərclər Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin büdcədənkənar gəlirləri hesabına həyata keçirilir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. ERİS haqqında əsasnamənin layihəsini hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi altı ay müddətində ERİS-in formalaşdırılmasını təmin etsin.

**5.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

5.1. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, ERİS-in aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin;

5.2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, ERİS-in "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin.

**6.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

6.1. ERİS-i mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və onun təhlükəsizlik meyarları üzrə monitorinqini həyata keçirsin;

6.2. ERİS-in informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə sahibi və operatoru ilə birlikdə zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyul 2024-cü il**

# Yeni icra başçıları işə başladılar



**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Adil Abış oğlu Əliyevi iyulun 9-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim edib.**

A.Əliyev ona göstərilən etimada görə minnətdarlıq edib.

*



**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Əziz İmran oğlu Əzizovu da həmin gün Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim edib.**

Ə.Əzizov da ona göstərilən etimada görə minnətdarlıq edib.

Hər iki təqdimatda Zeynal Nağdəliyev çıxış edərək yeni təyinatlarla bağlı dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

**XQ**

# Azərbaycan və Türkiyə Türk dünyasının önündə gedir

**Bu sözləri açıqlamasında Vaşinqtonda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş deyib.**



O qeyd edib ki, ulu öndər Heydər Əliyevin də dediyi kimi, Türkiyə və Azərbaycan iki dövlət, tək millətdir. TBMM sədri əlavə edib ki, iki ölkə arasında dostluq və qardaşlıqdan da çox-çox irəlidə gözəl əlaqələr mövcuddur: "Bu əlaqələrin təcrübədə də nəticələr verdiyini görürük. Azərbaycan və Türkiyə əl-ələ verərək, sadəcə, iki dövlətin deyil, 300 milyonluq Türk dünyasının da yenidən güclü şəkildə ayağa qalxması üçün öndəgedən olacaqlar".

***XQ***

# Azərbaycan milli diplomatiyasının 105 illiyi ilə bağlı mərasim



**Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 105 illik yubileyinə həsr olunmuş rəsmi qəbul təşkil olunub. Bu barədə XQ-yə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.**

Bildirilib ki, rəsmi qəbulda Xarici İşlər Nazirliyinin rəhbər heyəti, müvafiq dövlət qurumlarının yüksək səviyyəli nümayəndələri, habelə ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 9 iyul - diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə beynəlxalq müstəvidə ölkəmizin maraqlarını qoruyan və təşviq edən bütün əməkdaşlara təbriklərini çatdırıb, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Xidməti fəaliyyətləri zaman dünyasını dəyişən diplomatların xatirəsi ehtiramla yad edilib.

Ölkə rəhbərliyi tərəfindən aparılan, milli maraqlara əsaslanan suveren, uzaqgörən və praqmatik xarici siyasət xəttinin ölkəmizin bütövlüyünün qorunmasına, vətəndaşlarımızın rifahına, inkişafına hədəfləndiyi, eyni zamanda, regional və beynəlxalq səviyyədə dayanıqlı inkişafa töhfə verdiyi diqqətə çatdırılıb. Bu istiqamətdə qarşılıqlı hörmət və daxili işlərə qarışmama kimi prinsiplərin rəhbər tutulduğu ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirildiyi, habelə müxtəlif, o cümlədən iqtisadi, energetika, nəqliyyat, humanitar, rəqəmsal diplomatiya sahələri üzrə təşəbbüslərin irəli sürüldüyü bildirilib.





Uzun illər ölkəmizin xarici siyasət prioriteti olan keçmiş erməni işğalına son qoyulması istiqamətində ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən görülən böyük işlər nəticəsində ərazi bütövlüyü və suverenliyimizə beynəlxalq dəstəyin təmin edildiyi, bununla da Zəfərimiz üçün zəruri siyasi və hüquqi çərçivənin yaradıldığı vurğulanıb. Keçmiş münaqişənin başa çatması ilə bölgədə yeni reallıqların, sülh, sabitlik və əməkdaşlığın qurulması üçün yeni imkanların yarandığı qeyd olunub. Yaranmış bu tarixi şəraitdə ölkəmizin hər zaman olduğu kimi, dialoq və sülh tərəfdarı qismində çıxış etdiyi, qarşı Ermənistan tərəfi üçün isə ərazi iddiaları əvəzinə, regional əməkdaşlığı seçmək vaxtının gəlib çatdığı qeyd edilib.

Hazırda beynəlxalq münasibətlər sistemində hökm sürən qlobal qeyri-sabitliyin fonunda Azərbaycanın baxışının çağırışlara qarşı mübarizədə möhkəm əməkdaşlığın gücləndirilməsi olduğu və bu baxışın irəlilədilməsinin xarici siyasətimizin yeni proaktiv roluna dəlalət etdiyi bildirilib. Bu istiqamətdə, xüsusilə ailəmiz hesab etdiyimiz Türk Dövlətləri Təşkilatının gücləndirilməsi, habelə COP29-a ev sahibliyimiz çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə sahəsində inkişaf etmiş və inkişafda olan ölkələr arasında körpü yaradılması istiqamətində təşəbbüslərin əhəmiyyəti diqqətə çatdırılıb.



Sonra çıxış edən Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Xarici İşlər Nazirliyində, o cümlədən xarici ölkələrdə fəaliyyət göstərən bütün diplomatik xidmət orqanları əməkdaşlarına, o cümlədən peşə bayramı ərəfəsində Prezident İlham Əliyev tərəfindən diplomatik rütbə ilə təltif olunan diplomatlara səmimi təbriklərini çatdırıb. Keçmiş işğal və münaqişənin aradan qaldırılmasından sonra bu gün diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramının tam fərqli ab-havada qeyd olunduğu bildirilib.

Ölkəmizin regional və qlobal təşəbbüslərindən geniş danışan Hikmət Hacıyev xüsusilə COP29-a sədrliyimizin qlobal çağırışlarla mübarizəyə sadiqliyimizi nümayiş etdirdiyini bildirib.

Regionumuzda sülh və təhlükəsizlik quruculuğunun vaxtının yetişdiyi, bölgəmizin silahlara deyil, əməkdaşlığa ehtiyacının olduğu diqqətə çatdırılıb. Sülh prosesinin əsas komponenti olan sülh müqaviləsinin isə imitasiya xarakterli deyil, həqiqi və səmimi olmasının vacibliyi, bu istiqamətdə, ilk növbədə, Ermənistanın daxili auditoriyasının buna hazır olmasının əhəmiyyəti vurğulanıb.

Ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun duayeni Nasir Əbdül Kərim Əbdül Rəhim tədbirdə çıxış edərək Azərbaycanda fəaliyyət göstərən diplomatik nümayəndəliklərin adından səmimi təbriklərini çatdırıb. Müstəqilliyinin ilk illərindən bəri Azərbaycan tərəfindən qazanılan diplomatik uğurların sevinc doğurduğu qeyd olunub, ölkəmizə bundan sonra da davamlı nailiyyətlər arzulanıb.

Daha sonra tədbir iştirakçıları Azərbaycanın diplomatiya tarixinə həsr olunmuş videoçarxı izləyiblər.

Rəsmi qəbul ziyafət və konsert proqramı ilə davam edib.

***XQ***

# Bakıda Monteneqronun müstəqillik günü qeyd edilib

**"Azərbaycan və Monteneqro arasında dostluq və faydalı əməkdaşlığa əsaslanan əlaqələr daha da dərinləşəcək".**




Bu fikirləri Xarici İşlər Nazirliyinin İqtisadi əməkdaşlıq idarəsinin rəisi Elmar Məmmədov Monteneqronun müstəqilliyinin 18-ci ildönümü münasibətilə Bakıda təşkil olunan rəsmi tədbirdə səsləndirib.

Monteneqro dövlətini və xalqını Azərbaycan hökuməti adından təbrik edən XİN-in şöbə rəisi ölkələrimiz arasındakı münasibətlərin yüksələn xətlə inkişaf etdiyini deyib. Bildirib ki, dövlət və parlament səviyyələrində olduğu kimi, digər sahələrdə də münasibətlərimiz inkişaf etdirilir.

E.Məmmədov qeyd edib ki, Azərbaycan və Monteneqro arasında siyasi dialoq son bir neçə ildə intensivləşib. Milli Məclis sədrinin cari ilin aprel ayında Monteneqro parlamentinin sədri ilə görüşü, aparılan müzakirələr, həmçinin həmin ayda hər iki ölkənin xarici işlər nazirlikləri arasında məsləhətləşmələrin ikinci raundunun təşkili əlaqələrimizin intensivliyini sübut edir.

Ölkələrimiz arasında, həmçinin iqtisadi, turizm, mədəniyyət sahəsində əlaqələrimizin genişlənməsindən məmnunluğunu bildirən E.Məmmədov vurğulayıb: "Əlaqələrimizin daha da dərinləşməsi üçün geniş imkanlar var. Bu istiqamətdə hökumətlərarası komissiyanın rolu böyükdür. Əminik ki, dostluq və qarşılıqlı etimada əsaslanan əlaqələrimiz daha da genişlənəcək".

***XQ***

# Azərbaycanın yeni sınağı: informasiya müharibəsinin “iç cəbhəsi”

**II məqalə**

***İnformasiya milli identikliyi qoruya və ya yenisini yarada bilər.***

***Georgi Poçeptsov***



## İki tarixi sammit və informasiya savaşı

Hakimiyyət–cəmiyyət münasibətlərinin indiki mərhələdə informasiya müharibəsində daha çox hədəfə alınması təsadüfi deyildir. Əksinə, bu məsələ Azərbaycanın əldə etdiyi uğurların artıq dünyanın bir sıra dairələrinə ciddi təsir etdiyinin göstəricilərindən biridir. Söhbət konkret olaraq, Prezident İlham Əliyevin yeni tarixi mərhələnin başlandığı ilə bağlı verdiyi mesajdan gedir.

Azərbaycan liderinin “yeni tarixi mərhələ” ifadəsinə hansı mənanı verdiyini çox yaxşı bilirlər. Bunun arxasında Azərbaycan Respublikasının müstəqil dövlət kimi bütün istiqamətlərdə inkişaf strategiyası dayanır. Həmin strategiya dövləti və cəmiyyəti tərəqqinin yeni mərhələsinə yüksəldəcək. Eyni zamanda, Azərbaycan Respublikası müstəqil dövlət kimi regional, multiregional və qlobal miqyaslarda daha qabaqcıl yer tutacaqdır. Bu prosesdə Bakının regional və qlobal təşkilatlardakı fəaliyyətini yeni səviyyəyə yüksəltməsi xüsusi anlam kəsb edir.

Bütün bunları ümumiləşdirəndə bir qənaət hasil etmək olar: Azərbaycan yeni tarixi mərhələdə dövlət və cəmiyyət olaraq daha da inkişaf edəcəkdir və onun geosiyasi, mədəni, iqtisadi, informasiya, energetik, mənəvi-mədəni təsiri xeyli artacaqdır. Artıq bu prosesin başlandığı aydın görünür. Onu təsdiq edən son faktlar kimi Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) və Şuşada olan Türk Dövlətləri Təşkilatının (TDT) sammitlərini göstərmək olar. İlk baxışdan bu hadisələrin elə bir əlaqəsi yoxdur. Lakin Azərbaycanın yeritdiyi xarici siyasətin məntiqi və strateji məqsədləri prizmasında hər ikisi möhtəşəm tədbirdir.

## Azərbaycanın dövlət iradəsi və liderlik imkanları

Hər iki tədbirdə Azərbaycanın dövlət iradəsi və liderlik imkanları özünü qabarıq surətdə göstərdi. Astanada bunun ifadələrindən biri Çinlə strateji tərəfdaşlığı qurmaq haqqında sənədin imzalanması oldu. Azərbaycanla Çin iki fəal və müstəqil siyasət yeridən dövlət kimi münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməyi və bunun üçün əməkdaşlıqla təhlükəsizliyi beynəlxalq hüquq çərçivəsində yeni mərhələyə yüksəltməyi təsbit etdilər. Sənəddəki müddəalardan görünür ki, Pekin Bakının regional liderliyini tam qəbul edir və buna uyğun strateji əlaqələri gücləndirməyə və dərinləşdirməyə hazırdır. Əlbəttə, Çin kimi güclü bir dövlətlə bu səviyyədə əməkdaşlıq sənədi imzalamaq Azərbaycanın dövlət kimi böyük imkanlarından xəbər verir.

Şuşada TDT-nin qeyri-rəsmi sammiti isə sözün həqiqi mənasında, Azərbaycanın bu təşkilatda aparıcılıq rolunun əyani nümayişi oldu. Müzakirələrin nəticəsində qəbul edilən Qarabağ Bəyannaməsində isə ayrıca müddəa kimi Prezident İlham Əliyevin liderliyi vurğulanır. Bundan başqa, Şuşa Sammitindən dünyaya çox ciddi siyasi və geosiyasi mənalı ismarıclar verilmişdir. Onların məzmunundan görünür ki, TDT-nin güclənməsində Azərbaycanın rolu xüsusidir.

Bu iki tədbirin geosiyasi mənasını vurğuladığımız qısa tezislərin ümumi fonunda aydın dərk edə bilərik. Hər iki tədbir göstərdi ki, Azərbaycanın dövləti iradəsi çox güclüdür və qarşısına qoyduğu strateji məqsədlərə addım-addım, davamlı və kəsintisiz nail olmaqdadır. Bununla yanaşı, Bakı hətta regional və multiregional təşkilatlarda aparıcı rolunu oynamaq iqtidarındadır. ŞƏT kimi güclü dövlətləri özündə birləşdirən bir təşkilatda qısa müddətdə böyük uğur qazanmaq yüksək potensialdan xəbər verir. Bunun fonunda TDT-də aparıcı rolu oynamağın əhəmiyyəti daha aydın görünür. Bəs bu kimi uğurlara Azərbaycan nəyin sayəsində nail ola bilir?

## Lider–xalq birliyi

Əlbəttə, bunun səbəbləri çoxdur. Lakin onların sırasında lider–xalq birliyi xüsusi yer tutur. II Qarabağ savaşı göstərdi ki, ən böhranlı vəziyyətdə belə Azərbaycan xalqı liderini tam dəstəkləyir. Lider də sübut etdi ki, xalqın və dövlətin maraqları onun üçün prioritetdir. Bu prioritetlər uğrunda uğurlu mübarizə aparmağın mümkünlüyünü də Azərbaycan lideri praktiki fəaliyyətdə sübut etdi. İlham Əliyev bunun üçün Dövlət başçısı – Lider – Ali Baş Komandan vəhdətini yarada bildi. Müasir idarəetmənin başlıca faktorları olan bu üç fəaliyyət istiqamətini dövlətçilik müstəvisinə yönəltdi və qalib gəldi.

II Qarabağ savaşının nəticələri ölkə daxilində, regionda və qlobal miqyasda ciddi dəyişikliklər etdi. Azərbaycan cəmiyyətində hakimiyyət–xalq birliyi yeni səviyyəyə yüksəldi. Cəmiyyətin Prezidentə inamı və güvəni daha da artdı. Regional miqyasda Azərbaycanın yeri və rolu yeni səviyyəyə yüksəldi. Artıq rəsmi Bakının iştirakı olmadan heç bir geosiyasi, siyasi və təhlükəsizlik məsələsi həll edilə bilməz. Azərbaycanın regional və qlobal təşkilatdakı fəaliyyəti isə Bakının dünya geosiyasi dinamikasına təsirinin artmasının təsbitidir

## Bir sıra dairələrin çıxardığı nəticələr

Təcrübə göstərir ki, bunlar bir sıra dairələri qətiyyən qane etmir. Müxtəlif üsullar və formalarla Azərbaycanın bu irəliləyişinin qarşısını almağa çalışırlar. Əl atdıqları üsullardan biri də lider–xalq, hakimiyyət–cəmiyyət birliyinə xələl verməkdən ibarətdir. Məhz buna görədir ki, ilk baxışdan adi sosial hadisə kimi görünən, lakin dərinliklərdən baxanda Azərbaycan cəmiyyətinin birliyini zəiflətməyə yönəlmiş, vətəndaşların hakimiyyətə inamının azaldılmasına xidmət edən hadisələr baş verdiyi görünür. Bu məqam başqa dövlətlərdə də analoji olaraq baş verən hadisələrin fonunda təsdiqini tapır. Son günlərin bir neçə faktına baxaq.

Azərbaycan KİV-i polisə yönəlmiş zorakılıq və hətta onların qətl edilməsi halları haqqında informasiyalar verir. Xəbərlərin təqdimatında süjet eynidir: polis hansısa cinayətkarı tutmaq istəyərkən müqavimətə rast gəlir və aktiv zorakılığa məruz qalır. Cinayətkarlar bir qayda olaraq bıçaqla polisə hücum edirlər. Sonra bu süjetin “izahına” keçirlər. Sən demə, cinayətkar “sosial və hüquqi ədalətsizliyə” məruz qalıbmış. Yəni dolayısı ilə hüquq-mühafizə orqanlarının ədalətliliyi və legitimliyi şübhə altına alınır. Bu cür təqdimat həm də başqalarının belə informasiyalara uyaraq, ümumiyyətlə, rəsmi dövlət orqanlarına qarşı qeyri-obyektiv münasibət göstərməsini motivasiya edə bilər.

Beləliklə, bu, informasiya müharibəsinin tipik nümunəsidir. Əlbəttə, hər bir hadisənin obyektiv araşdırılması zəruriliyini kimsə kənara qoya bilməz. Və araşdırma olmadan kimlərisə günahlandırmaqdan söhbət gedə bilməz. Ancaq postsovet ölkələrində baş verən analoji hadisələrin sonradan interpretasiyası, ideolojiləşdirilməsi və bunun mövcud hakimiyyətə qarşı yönəldilməsi nümunəsini də kənara qoya bilmərik. Məsələn, qonşu Gürcüstanda bir neçə il öncə bu kimi kriminal hadisələri siyasiləşdirərək hakimiyyətlə cəmiyyət arasında uçurum yaratdılar. Lakin hər hansı güclü Qərb ölkəsində həmin növ kriminal hadisələrin hakimiyyətin legitimliyinə qarşı ictimailəşdirilməsinə imkan verilmir.

Fakt olaraq bir neçə ildir ki, müxtəlif situasiyalarda polislə qara dərili amerikanlar arasında baş verən kriminal toqquşmaları göstərə bilərik. ABŞ polisi tam əsas olmadan silah tətbiq edir və insanı qətlə yetirir. Belə hadisələri “polis haqlıdır” məntiqi ilə Amerika rəsmi orqanları yatırdırlar.

Postsovet məkanı ölkələrində, konkret olaraq Azərbaycanda öncə polis silah tətbiq etmir, əksinə ona qarşı silah işlədirlər. Son hadisədə Azərbaycan polisi nəinki qəhrəman kimi davranmışdır, hətta silah tətbiq etməməklə vətəndaşlıq nümunəsi göstərmişdir. Başqa misalları da xatırlamaq olar.

Ancaq ABŞ-dan fərqli olaraq, Azərbaycan hüquq-mühafizə orqanlarının legitimliyini gözdən salmaq cəhdi aydın duyulur. Məhz bu, dövlətə qarşı informasiya savaşının müxtəlif dolayı üsullarla aparıldığını göstərən haldır.

Belə təəssürat yaratmağa çalışırlar ki, Azərbaycan polisinə qarşı zorakılıq təbiq etmək olar. Lakin amerikan (və ya fransız, alman, holland, ingilis və s.) polisinə qarşı olmaz. Məlum Gəncə hadisələrindən bu yana həmin məntiqlə zəncirvari kriminal hadisələr törətməyə çalışırlar. Hadisənin kriminal və hüquqi çəkisi bir tərəfdə qalır, həlak olan gənc polisin taleyi, onun valideynləri, ailəsi, sevdiklərinin ağrı-acısı kənara qoyulur. Bunun fonunda qatilin haqqı və hüququndan danışırlar. Onun duyğularından bəhs edirlər. Əlbəttə, bunu da etmək olar. Çünki hər bir insan qiymətlidir. Lakin istənilən variantda cinayətin qiyməti hüquqda verilməlidir. Hadisələrdən istifadə edərək ümumilikdə cəmiyyətdə silkələnmə yaratmaq xətti keçilməməlidir. Məsələnin məhz bu tərəfi informasiya müharibəsi ilə bağlıdır.

Burada iki məqamı vurğulamaq lazımdır. Onlardan biri, Azərbaycan cəmiyyəti daxilində hakimiyyət–cəmiyyət birliyinə zərər vermək istəyənlərə rast gəlinməsi ilə bağlıdır. Digəri isə xaricdən Azərbaycanda baş verən kriminal hadisələri süni siyasiləşdirməyə cəhd göstərənlərin mövcudluğu ilə əlaqəlidir. Yəni düşmən düşməndir – ondan inciməz, küsməz və ya insaf ummazlar. Düşmənin mənfur niyyətlərinə xidmət etmək artıq başqa məsələdir. Əsl vətəndaşlıq mövqeyi tamam başqa məqamdadır. Məsələn, düşmənin informasiya siyasətinə boyun əymək əvəzinə, bir Azərbaycan vətəndaşını (o, kiriminal və ya cinayətkar olsa belə) xilas edə biləcək iş görmək daha faydalı deyilmi? Biz kənardan durub baş verənlərə qiymət veririk, lakin hansımız problemi olan, cinayətə meyilli gənclə psixoloji söhbət aparmışıq? O cümlədən, kənarda verilən ssenari ilə Azərbaycana “demokratiya, hüquq, insan haqları gətirən” “qoçaqlar” bir dəfə də olsun, cinayət törətmiş gənclə profilaktik psixoloji söhbət aparmışlarmı?

Axı, həlak olan hər bir vətəndaşımız (ona cinayətkar deyilsə belə) cəmiyyətə aiddir. Onların qorunması, həyatlarını itirməməsi üçün çalışmaq lazımdır. Kimliyindən asılı olmayaraq bir azərbaycanlının belə haqqı və hüququnun tapdanması, ona zərər gəlməsi qəbuledilməzdir. Eyni məntiqlə cəmiyyətdə parçalanma və qarşıdurma yaratmağa çalışanlarla bir cərgədə dayanmaq daha ağır günahdır, hüquqi uyğunsuzluq və mənəvi xəyanətdir!

## Tarixi savaşın iştirakçıları

Bu fikirlər emosional əhval-ruhiyyədən yaranmamışdır. Yuxarıda qısa təsvir etdiyimiz və Azərbaycan üçün böyük əhəmiyyəti olan proseslərin fonunda baş verənləri məntiqi anlamaqla əlaqəlidir. Yəni dərk etməliyik ki, kimliyindən asılı olmayaraq bir Azərbaycan vətəndaşına olan qəsd hamımıza olan qəsddir. Bütövlükdə bu kimi faciəvi olaylardan hakimiyyətlə cəmiyyət arasında uçurum, etibarsızlıq, inamsızlıq yaratmaq üçün istifadə etmək cəhdi qəbuledilməzdir! İlk baxışdan cəmiyyətdaxili situasiya kimi görünən bu mənzərə, əslində, geniş prizmadan Azərbaycan dövlətinin yeritdiyi siyasətin məzmunu aspektində tamam fərqli təsir bağışlayır.

Şişirtməsiz, Azərbaycan vətəndaşları, ziyalıları və bütövlükdə, cəmiyyət, dövlət orqanları, hakimiyyət mənsubları olaraq böyük tarixi savaşın iştirakçılarıyıq. Bu cəbhədə bizim vəzifə statusumuz əsas deyildir – “savaş cəbhəsi”ndə hansı mövqedə və məqsəddə olmağımız əsasdır!

“Mən kiməm?” sualına cavab bu anda, bu “səngər”də verilməlidir. Elə bir informasiya “səngərində” ki, onun əsgəri və generalı da özünsən! O başqa məsələdir ki, kimliyin “səngərin” hansı tərəfində durmağınla birbaşa bağlıdır – Ali Baş Komandan Azərbaycanın lideridir, yaxud kənardan gizli “əldir”? Bu suala cavab üzərində düşünəndə çox məqamlar gün kimi aydınlaşır. Onda “Azərbaycanın maraqları” ifadəsi müqəddəsləşir (və ya tam yadlaşır), şəxsi məqsədə çevrilir. Bu seçimi edən Azərbaycan vətəndaşı informasiya savaşının qalibidir! Azərbaycanlılar qələbəyə alışmışlar!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# “Rubinologiya”





**(əvvəli 1-ci səhifədə)**

Beləliklə, M.Rubin yada salır: Azərbaycan qoşunlarının İosif Stalinin Azərbaycana verdiyi qədim erməni bölgəsi Qarabağa daxil olmasından bir ildən az vaxt keçib. Göründüyü kimi, politoloq tarixi ya kəlləmayallaq anlayır, ya da qəsdən təhrif edir. Əslində isə ənənəvi stereotiplərə siyasi sərmayə yatırır. Axı Qərbdə yeri gəldi-gəlmədi Stalinin qəddar kultunu qabartmaq mərəzi var. Rubin də ölkəsinin ictimai rəyini məhz bu tərzdə manipulyasiya edir, reallıqlara meydan oxuyur.

İkincisi, M.Rubin bildirir ki, Qarabağ iki səbəbə görə tarixi əhəmiyyət kəsb edir. Birincisi, sən demə bölgə Yer kürəsində xristianlığı rəsmi din kimi qəbul edən ilk ölkə olan Ermənistanın ənənəvi mərkəzi imiş. “İkincisi, bu, demokratiyanın qalasıdır. Doğrudan da, SSRİ-nin dağılmasına son qoyan demokratik hərəkat Qarabağın paytaxtı Stepanakertdə (Xankəndi – red.) başladı”, – deyən amerikalı politoloqun gündəmi Qərb düşüncələrinə hakim kəsilmiş saxta tezislərlə doldurduğu göz önündədir. Sən demə, Ermənistan dünyada xristianlığı ilk dəfə rəsmi şəkildə qəbul edibmiş. Məgər, xristianlıq yarananda Ermənistan adlı ölkə, yaxud məkan var idimi? Əlbəttə ki, yox!

Digər yandan, Rubin vaxtilə erməni millətçilərinin Qarabağda başlatdıqları “Miatsum” ideyasına demokratik obraz qazandırmaq kimi miskin və rəzil işə girişir. O “Miatsum”a ki, Qarabağı Ermənistana birləşdirmək məramına köklənmişdi. Rubin yarımçıq bildiyi demokratiyanı bu məramın hansı tərəfində görür, məlum deyil. Ancaq fakt faktlığında qalır ki, Qarabağda separatçı hakimiyyət “Miatsum” cəfəngiyyatının mümkünsüzlüyünə görə quruldu. Erməni millətçiləri düşündülər: Bir halda ki, Qarabağın Ermənistana birləşməsi beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənmir, o zaman ərazi müstəqil olsun.

Qeyd edək ki, vaxtilə Ermənistanda mövcud olmuş Koçaryan-Sarkisyan xunta rejimi də Qarabağın özünün seçilmiş hakimiyyətinin olduğunu bildirir, onu Azərbaycanla danışıqlar prosesinin tərəfi kimi göstərməyə çalışırdı. Yeri gəlmişkən, bəzi Qərb dairələri də mövcud istiqamətdə qollarını çırmamışdılar. Sonuncu dəfə belə sərsəm ritorikaya Ermənistanın baş naziri Nikol Paşinyan baş vurmuşdu. O, 2023-cü ilin sentyabr ayının əvvəlində bildirmişdi ki, Qarabağın özünün seçkili hakimiyyəti var. Həmin “hakimiyyətin” necə məhv edildiyi, təmsilçilərinin isə Bakı həbsxanalarına gətirildiyi hər kəsə yaxşı məlumdur. Azərbaycan hərbi birləşmələrinin 2023-cü ilin sentyabrında keçirdikləri lokal xarakterli antiterror tədbirləri, necə deyərlər, bütün daşları öz yerinə oturtdu.

...İndi Rubin öz yerində oturmaq istəmir. O, SSRİ-nin dağılmasından sonrakı proseslərə diqqət çəkir və elə fon yaradır ki, guya, Azərbaycan kimi, Qarabağ da sabiq imperiyanın tərkibində ayrılıb müstəqilliyinə qovuşmuşdu. Ən əsası isə Rubin separatizmi demokratik hərəkat qismində təqdim edir.

Bəli, otuz ilə yaxın Azərbaycan torpaqlarının, o cümlədən Qarabağın işğalını demokratiyanın təntənəsi kimi qiymətləndirən amerikalı politoloq 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri məsələsində şivən qoparmağı da unutmur. Guya, rəsmi Bakı bu tədbirlərlə həm erməni xristian icmasını məhvə məruz qoyub, həm də demokratiyanı boğub. Ən əsası isə Rubinin fikrincə, Azərbaycanın artıq canını tapşırmış separatçı rejimin Xankəndidəki “parlament” binasını sökməyi demokartiyaya qarşı düşmənçilik imiş (?).

M.Rubinin həyasızlığı təkcə bunları bildirməklə yekunlaşmır və məqaləsində ABŞ Administrasiyasını günahlandırır. Yazır ki, Azərbaycanın 2023-cü ilin sentyabrındakı “Qarabağ işğalı” Dövlət Departamentinin bürokratı Yuri Kimin senatorları Birləşmiş Ştatların bölgə ermənilərinin “etnik təmizləmələrinə” dözməyəcəyinə inandırmasından cəmi dörd gün sonra baş verib və Y.Kim yalan danışıb. Rubin onu da yazıb ki, “Freedom House” hüquq-müdafiə təşkilatı Azərbaycanın hərəkətlərinin keçmiş Yuqoslaviyadakı münaqişə kontekstində başa düşülən etnik təmizləmə meyarlarına cavab verdiyini açıqlayıb. Ardınca isə belə bir sual verib: “Bəs niyə Blinken (ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinken – red.), milli təhlükəsizlik müşaviri Ceyk Sullivan və USAID-in rəhbəri Samanta Pauer soyqırımla bağlı birmənalı fikir yürütmür? Şübhə yoxdur: ABŞ-nin Azərbaycanı sakitləşdirmək qərarı yuxarıdan gəlir”.

M.Rubin ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbinin üzərinə getməyi yaddan çıxarmır. Birinci ikincini Şuşaya yollandığına görə hədəfə alır və bildirir ki, səfir orada etnik təmizləmə, kilsələrin və xristian abidələrinin dağıdılması barədə heç bir söz dilə gətirmədi, yalnız Şuşanın gözəlliyinə heyran qaldığını söyləməklə kifayətləndi.

Özünün sərsəm fikirlərini davam etdirən M.Rubin iyunun 26-da ABŞ-nin Avropa Komandanlığının Azərbaycan Ordusuna təbrikinə də fokuslanaraq çərənləyib ki, guya hərbi və mülki cinayətlər törətmiş ordu barədə xoş sözlər işlətmək düzgün deyilmiş. Rubinin Azərbaycan–Ermənistan sülh gündəmi, daha doğrusu, həmin gündəmə xələl gətirməyə hesablanmış daha bir fikri isə budur ki, Birləşmiş Ştatlar Bakı və İrəvan arasında razılaşmanın əldə edilməsinə çalışmaqla, Prezident Co Baydenin siyasi uzunömürlülüyünü artırır. Onun fikrincə, Vaşinqton məhz buna görə sülh sazişinin imzalanmasına səy göstərir: “Lakin rəsmi Bakı vaxtı uzadacaq ki, Birləşmiş Ştatlarda prezident seçkilərinin nəticələri məlum olsun”.

Yekunda M.Rubin Azərbaycan və Ermənistan arasında imzalanması nəzərdə tutulan sülh müqaviləsini “mənasız kağız parçası” adlandırıb və yenə əvvəlki ritorikasına qayıdaraq, bu sazişə görə Qarabağda “etnik təmizləmə” ilə barışmağın yolverilməzliyini vurğulayıb: “Azərbaycan və Ermənistan arasında sülh nəcib məqsəddir. Lakin onun qiyməti etnik təmizləmə ola bilməz. Baş verənlərin cəzasını gələcək nəsil qanla çəkəcək. Humanitar faciə daha da dərinləşə bilər”.

Sonda onu da bildirək ki, politoloq M.Rubin və onun kimilərinin yuxarıda diqqətə çatdırdığımız fikirlərinin zərərli tərəflərindən ən başlıcası həmin fikirlərin Ermənistan hakimiyyətində illüziya doğurmasıdır. Daha dəqiq desək, belə fikirlər baş nazir N.Paşinyanın komandasındakı, bütövlükdə isə erməni cəmiyyətindəki illüziyanı daha da artırır. Bu isə sülhə ciddi ziyandır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# NATO doğru seçim etməlidir

*Vaşinqtonda 75 illiyini qeyd edən Şimali Atlantika Alyansı çətin dönəmini yaşayır*

**Dünyanın gözü Vaşinqtona dikilib. Amerika Birləşmiş Ştatlarının hegemon olduğu planetin ən böyük hərbi alyansının yaradılmasının 75 illiyi münasibətilə dünən başlayan Zirvə görüşünə NATO üzvlərindən başqa, bir çox ölkələrin dövlət və hökumət başçıları da dəvət alıblar.**

Siyasi ekspertlərin proqnozlarına görə, NATO liderlərinin Vaşinqton Zirvə görüşünün gündəliyində üstünlük təşkil edəcək mövzular Ukrayna, Rusiya və Avropanın hərbi xərcləri olacaq. Yubiley sammitin gündəmində NATO-nun 5 il bundan əvvəl xatırlamağa ehtiyac duymadığı uzaq bir coğrafiya –- Çin də var. Vaşinqton Sammiti ərəfəsində bu barədə "Wall Street Journal" məlumat yayıb. Dərginin analitikləri belə bir qənaətə gəliblər ki, Çin Ukraynaya qarşı müharibədə Rusiyaya gizli yardım edir. Bu səbəbdən son vaxtlar NATO ölkələri Çini öz sərhədləri daxilində casusluq, kiberhücumlar və dezinformasiya kampaniyaları aparmaqda ittiham edirlər. Bu zaman Çin Tayvanı dəstəkləyən Avropa ölkələrini cəzalandırmaqdan ötrü iqtisadi gücündən sui-istifadə edir. Hətta, jurnal alyansın adlarını açıqlamadığı diplomatlarına istinadla yazıb ki, NATO-nun yubiley sammitinin bəyannaməsində Rusiyanın Ukraynaya müdaxiləsini dəstəklədiyinə görə Çinin kəskin tənqid edilməsi də yer alacaq.

## Alyans ümidləri doğrultmur

Şimali Atlantika Alyansının yubiley sammitində Azərbaycanı Xarici işlər naziri Ceyhun Bayramov təmsil edir. XİN-dən verilən məlumata görə, sammit çərçivəsində C.Bayramovun bir sıra yüksək səviyyəli ikitərəfli görüşlər keçirəcəyi nəzərdə tutulub. O, həmçinin alyans tərəfdaşları ilə keçiriləcək tədbirdə iştirak edəcək.

"NATO Türkiyənin gözləntilərini doğrultmur. Bu, bəzi məsələlərdə, o cümlədən Yaxın Şərqlə bağlı durumda özünü göstərir. Biz bu istiqamətlərdə, müxtəlif səviyyələrdə müzakirələrimizi davam etdirəcəyik". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun yubiley sammitində iştirak etmək üçün ABŞ-yə yola düşməzdən əvvəl İstanbulun Esenboğa Hava Limanında keçirdiyi mətbuat konfransında deyib. O bildirib ki, ABŞ-də keçirəcəyi görüşlərdə bu məsələni xüsusilə diqqətdə saxlayacaq. R.T.Ərdoğan NATO-nun sammitindən gözləntilərini də dilə gətirib: "Ümid edirik ki, müzakirələr nəticəsində alyans daxilində həmrəylik və birlik ruhunu gücləndirmək üçün konkret qərarlar qəbul ediləcək".

NATO-nun terrorla mübarizə istiqamətində səylərini gücləndirməyin vacibliyinə diqqətçəkən Türkiyə lideri, həmçinin Ukraynada davam edən müharibə barədə də danışıb: "NATO bu müharibədə tərəf olmamalıdır. Biz Türkiyə olaraq müharibənin ilk günündən etibarən ədalətli sülhün tərəfdarı olmuşuq və indi də bunun üçün çalışırıq".

## Alyansa etirazlar

Şimali Atlantika Müqaviləsi Təşkilatının dünyada yeritdiyi siyasətə ən çox ABŞ-nin özündə etiraz edilir. NATO-nun yubiley Sammiti ərəfəsində Vaşinqtonun mərkəzindəki kilsəyə toplaşmış vətəndaş fəalları hərbi alyansın ləğvi, NATO-nun dünyanın müxtəlif nöqtələrindəki bazalarının bağlanması ilə əlaqədar çağırışlar səsləndiriblər. Yerli mətbuatın eks-prezident Donald Trampın tərəfdarları kimi qələmə verdiyi aksiya iştirakçıları, həmçinin ABŞ-nin bu alyansdan çıxmasını tələb ediblər. Əllərində "ABŞ imperializmini dayandırın!", "NATO-nun dəstəklədiyi müharibələrə son!", "ABŞ bazalarını bağlayın!", "Asiya, Afrika və Latın Amerikasından çıxın!" kimi radikal şüarlar yazılmış plakatlar tutan etirazçılar alyansın ölkənin təhlükəsizliyinə risk yaratdığını bildiriblər.

Yeri gəlmişkən, oxucuların nəzərinə çatdıraq ki, Donald Tramp seçkiqabağı təbliğat kampaniyasının gedişində bir neçə dəfə ABŞ-nin NATO-dan çıxmasının zəruriliyi barədə açıqlamalar verib. O, ümumiyyətlə, Ağ evin bu hərbi alyansa, eləcə də Ukraynaya maliyyə dəstəyini dayandırmağın ən düzgün addım olduğunu bəyan edib.



### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Yetmiş beş il bundan əvvəl NATO güclü hərbi-siyasi blok kimi yaranıb. Bu blok SSRİ və onun sosialist düşərgəsinə daxil olan dövlətlərə qarşı konkret addımlar atmağa başladı. Çünki "soyuq müharibə" gedirdi, ABŞ ilə SSRİ arasında onilliklər ərzində soyuq münaqişlər baş verirdi. Doğrudur, indi vəziyyət kökündən dəyişilib. Hazırda, təbii ki, NATO-nun tamamilə yeni prioritetləri cızılmalıdır. Bu nöqteyi-nəzərdən yanaşanda, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan haqlıdır. Yəni, bu hərbi alyans keçmişlə yaşamamalı, müasir geosiyasi məqamları nəzərə alaraq, öz siyasətini daha çevik formada yürütməlidir. Amma biz nəyi müşahidə edirik? Ərdoğanın dediyi kimi, NATO rəhbərliyi qəbul etdiyi qərarların yekdilliklə yerinə yetirilməsinə çalışır. Bu yanaşma, əlbəttə ki, mövcud reallığa uyğun deyil.

Misal üçün, Türkiyə NATO üzvü kimi alyansın ən vacib, ən güclü oyunçularındandır. Fəqət, bir çox hallarda qardaş ölkə NATO-nun bəzi standartlarını qəbul etməklə yanaşı, eyni zamanda, özünün müstəqil, suveren siyasətini həyata keçirir. Ankara kiminsə diktəsi ilə hərəkət etmir. Vəziyyət və geosiyasi amillər bunu tələb edir. Bütün bunları nəzərə almaq lazımdır.

Azərbaycanın da NATO-nun yubiley sammitində iştirakı normal sayılmalıdır. Çünki ölkəmiz bu alyansın bir sıra proqramlarında tərəfdaş kimi iştirak edir. Rəsmi Bakı otuz ildir davam edən bu əməkdaşlıqdan heç vaxt imtina etməyib. Bundan sonra da belə bir fikrimiz yoxdur. Amma onu da açıq deməliyik ki, NATO-nun bəzi məsələlərə ikili yanaşması, ikili standartları Azərbaycanı qane edə bilməz. Əslində, Azərbaycan üzləşdiyi bir çox problemləri öz gücünə artıq həll edib. Ərazi bütövlüyümüzü kənar heç bir kömək olmadan özümüz bərpa etmişik. Buna baxmayaraq, güclü hərbi-siyasi blok olaraq NATO ilə əməkdaşlığımızı bundan sonra da davam etdirməyə hazırıq.

Bu məqamda, düşünrük ki, NATO-nun tarixinə və eləcə də Azərbaycan–NATO əməkdaşlığına qısa ekskurs etməyimiz yerinə düşər. 1949-cu ildə 12 dövlətin qurduğu, indi üzvlərinin sayı 32-yə çatan Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) ilkin missiyası dünyada, o cümlədən strateji maraqlarının təminat məkanı kimi gördüyü Avropada təhlükəsizlik məsələlərində aparıcı rol oynamaq idi. Fəqət "soyuq müharibə" mərhələsi başa çatandan və SSRİ adlı "qırmızı imperiya" süquta uğrayandan sonra alyansın elan etdiyi prinsip və dəyərlərində dəyişmələr, hərbi-siyasi mövqeyində deformasiyaya uğramalar müşahidə olunmağa başladı. NATO-nun üzvlərin artırılması, daha geniş coğrafiyaya genişlənməsi yönündə planları bir çox hallarda, xüsusilə, Şərqi Avropada yeni qaynar nöqtələrin yaranmasına, ölkələr və xalqlar arasında faciələrlə müşayiət olunan hərbi qarşıdurmalara gətirib çıxardı. Bunlar yaxın tarixin hələ yaddaşlardan silinməyən sənədli xronikasıdır.

BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən üçünün NATO dövləti (ABŞ, Fransa və İngiltərə) olduğuna diqqət yetirsək, onda son otuz ildə Şərqi Avropada, Yaxın Şərqdə, Şimali Afrikada, ərəb coğrafiyasında cərəyan edən xoşagəlməz hadisələrin mahiyyəti üzə çıxar. Həmin hadisələrin ilhamverici, hərəkətverici və hərbi təminatçısı qismində çıxış edən NATO qüvvələrinin ayrı-ayrı ölkələrin daxili işlərinə qarışmaq kimi xoşagəlməz təcrübəsi də var. Fəqət, bütün bunların alyansın bu gün Vaşinqtonda öz işini davam etdirəcək yubiley sammitində müzakirə predmeti olacağına inanmaq çətindir.

## NATO–Azərbaycan əməkdaşlığında yeni dönəm

Bu əməkdaşlığın tarixi otuz ili aşıb. 1994-cü il mayın 4-də Brüsseldə Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramını imzalayıb. Məhz həmin dövrdən başlayaraq NATO–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün münbit şərait yaranıb.

1999-cu ilin aprel ayında Vaşinqtonda NATO-nun 50 illik yubileyinə həsr olunmuş dövlət və hökumət başçılarının sammitində alyansın yeni strateji konsepsiyasının qəbul edilməsi əhəmiyyətli hadisə olub. Alyansın həmin zirvə görüşündə çıxış edən Ümummilli lider Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini və ölkəmizin Şimali Atlantika Müqaviləsi Təşkilatı ilə münasibətlərinin daha da dərinləşdirilməsinə hər cür kömək göstərəcəyini bildirib.

Üstündən bir ay keçəndən sonra, 1999-cu ilin may ayında NATO Parlament Assambleyasının Polşada keçirilən sessiyasında Azərbaycana bu qurumda müşahidəçi statusu verilib, 2001-ci il noyabrın 19-da isə ölkəmiz NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edilib.

Xüsusilə qeyd etməliyik ki, Azərbaycan – NATO əlaqələri Prezident İlham Əliyevin dövründə daha sürətlə inkişaf edib. İlham Əliyev 2004-cü ilin mayında Brüsselə səfəri zamanı Bakının hazırladığı "Fərdi tərəfdaşlıq üzrə Əməliyyat Planı"nı NATO-nun baş katibinə təqdim edib. Həmin plana görə, Azərbaycan Şimali Atlantika Blokunun 300-ə yaxın proqramında iştirak etmək hüququ qazanıb. Bu planda iştirak Azərbaycanın NATO ilə əməkdaşlığı sahəsində dönüş nöqtəsi, yeni mərhələyə keçid rolunu oynayıb. Ölkəmiz bu qurumun imkanlarından istifadə edərək beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya imkanı qazanıb. Son dörd ildə NATO ilə Azərbaycanın ikitərəfli əlaqələri daha da intensivləşib. Azərbaycan Ordusunun NATO standartlarına uyğun formalaşdırılması prosesi davam etdirilir. Azərbaycanın nümayəndə heyəti alyans çərçivəsində keçirilən bütün tədbirlərdə fəal iştirak edir. Bu sırada Azərbaycan Ordusu birləşmələrinin NATO ilə əməkdaşlıq çərçivəsində Kosovo və Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirakını ayrıca vurğulamağa dəyər.

### Ekspert rəyi



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru**

– Məsələnin maraq doğuran tərəfi odur ki, NATO-nun Vaşinqtonda keçirilən yubiley sammitinə Cənubi Qafqaz ölkələrinin üçünün də XİN başçıları dəvət olunub. Bu, o deməkdir ki, Azərbaycan ilə NATO arasında normal münasibətlər var və digər geosiyasi mərkəzlərlə əməkdaşlıq onu məhdudlaşdırmır.

ABŞ hazırda Ermənistan–Azərbaycan sülh danışıqlarında özünü vasitəçi kimi önə çıxarmaq niyyətindədir. Ceyhun Bayramovun Ararat Mirzoyanla görüşünün olub-olmamasına gəldikdə isə mətbuata verilən məlumata diqqət yetirsək, orada ancaq sammitdə iştirakdan və ikitərəfli görüşlərdən bəhs edilir. ABŞ tərəfi müxtəlif spekulyasiyalara yol verərək, özünü tərəflər arasında vasitəçi kimi göstərmək istəyir. Amma həqiqətdə, bu, belə deyil. Orada görüş baş tutsa da, ikitərəfli olacaq. ABŞ-nin hər hansı bir formada iştirakı nəzərdə tutulmur. Əgər Vaşinqtonda nazirlərin görüşü təşkil edilməsə, bu, Azərbaycanın belə görüşlərin yalnız özünün məqbul hesab etdiyi məkanlarda keçirilməsinə razı olduğu mənasına gələcək.

Bəli, ikitərəfli görüşlərin keçirilməsində hamı üçün məqbul sayılan yerlərin seçilməsi önəmlidir. Vasitəçisiz görüşlər yalnız Almaniya və Qazaxıstanda baş tutub. Əgər ABŞ-nin adı da bura əlavə edilsə, sabah Moskva və Tehrandan da belə dəvətlərin gəlməsi mümkündür. Fikrimcə, bu, o qədər də düzgün yanaşma deyil. Çünki görüşlər üçün elə məkanlar seçilməlidir ki, danışıqlarda əlavə gərginlik və rəqabətə səbəb olmasın.

Bu gün 75 yaşını qeyd edən NATO ilə Azərbaycan arasında əməkdaşlığın yeni mərhələsi başlayıb. Ən müasir standartlara cavab verən Silahlı Qüvvələrə sahib ölkəmiz bu hərbi-siyasi alyansla münasibətləri bərabərhüquqlu tərəfdaşlıq prinsipi ilə davam etdirməyə hazırdır.

***İmran BƏDİRXANLI***
***XQ***

### Köşə

# Qoyun dərisi geyinmiş "goreşənlər"

## Ermənistanın davakar "sülhməramlı"ları



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Mən bir ekspertlə bu məsələ ilə bağlı söhbət edərkən dedim ki, məntiqlə danışsaq, onlar ya "sülhməramlı qüvvələr" ifadəsinin mənasını başa düşmürlər, ya da hərbi əməkdaşlıq etmək istədikləri ölkələrdə qrant naminə kimisə aldatmağa çalışırlar. Ekspertin münasibəti daha maraqlı oldu: "Ermənistanda indiyədək beynəlxalq hüquqa, diplomatiyaya, ən azı məntiqə əsaslanan hansı addım atılıb ki, sülhməramlı qüvvələr məsələsini də həmin çərçivəyə tətbiq edə bilsinlər?"

Söhbət ondan gedir ki, mətbuatın yaydığı məlumata görə iyulun 15-dən 24-dək Ermənistanda "EAGLE PARTNER 2024" adlı hərbi təlim keçiriləcək. Sən demə, bütün dünyanın işğalçı dövlət kimi tanıdığı, Xocalı soyqırımını törətmiş, Azərbaycan ərazisinin 20 faizini otuz il ərzində vəhşicəsinə viranəyə çevirmiş xunta tipli dövlətin quldur xislətli hərbçiləri haradasa, kimlər arasındasa barışa nail olmaq üçün sülhməramlı missiyanı yerinə yetirə bilərmiş. Bu, son dərəcə absurddur.

Xatırladaq ki, sülhməramlı qüvvələr deyəndə hamının yadına düşən ilk məqam 1948-ci ildə yaradılmış, Birləşmiş Millətlər Təşkilatının dünyanın müxtəlif qaynar nöqtələrində baş verən münaqişələrin qabağını almaq və ya qısamüddətli həll yolunu tapmaq üçün formalaşdırılmış hərbi-silahlı qüvvələr olur. Doğrudur, sonradan BMT Nizamnaməsinə əməl etmək istəməyən siyasi güc mərkəzlərinin hərəsi öz sülhməramlı qüvvələrini formalaşdırıb. Amma onlar dünyada söz sahibi olan həqiqi güc mərkəzləridir. Ermənistanı həmin dövlətlərin hansı biri ilə müqayisə etmək olar?

Təkrar edirəm, həmin qüvvələr "münaqişənin qarşısını almaq üçün" yaradılmışdı. Ermənistan isə Fransanın dəstəyi, Emmanuel Makronun cidd-cəhdi ilə bölgədə yeni münaqişə yaratmaqdan ötrü əlindən gələni edir. Bu ölkənin konstitusiyasında az qala bütün qonşularına ərazi iddiaları var. İstənilən ərazi iddiasının isə potensial münaqişə mənbəyi olduğunu anlamayan yoxdur. Yəni münaqişə yaratmaqdan ötrü "burnunun ucu göynəyən" Ermənistan hansısa münaqişənin qarşısını almaq üçün sülhməramlı qismində fəaliyyət göstərəcək. Ağlasığmazdır.

Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumata görə, adı çəkilən təlimlərdə bu işğalçı ölkənin silahlı qüvvələrinin sülhməramlı briqadasının, ABŞ-nin Avropa və Afrikadakı quru qüvvələrinin və Kanzas milli qvardiyasının hərbçiləri iştirak edəcəklər. Utanmadan yazırlar ki, təlim sülhməramlı tapşırıqlar zamanı münaqişə tərəfləri arasında sabitləşdirmə əməliyyatlarını əhatə edir.

Bir soruşan da yoxdur ki, kimi aldadırsınız? Əvvəla, qaniçən ordu ( indi daha onda orduluqdan əsər-əlamət qalmayıb) haradasa qan tökülməsinin qarşısını almağa çalışarmı? Təbii ki, yox. İkinci, BMT yaradılanda, daha doğrusu, həmin təşkilatın sülhməramlı qüvvələri formalaşdırılanda o qüvvələrin İkinci dünya müharibəsində qalib gəlmiş ölkələrin nizami hərbçilərindən təşkil edilməsi müəyyənləşdirilmişdi. Ermənistan ordusu isə hələ kapitulyasiya sənədinə qol çəkmiş və ümumi hərbçilərin 25 faizinin fərarilik etdiyi silahlı qüvvələr damğası altında fəaliyyət göstərir. Burada hansı nizami ordudan söhbət gedə bilər?

Yəni xoruzun quyruğu hamının gözünün qabağındadır. Uzaq-uzaq ölkələrdən gələn qoca-qoltuq missionerlər Azərbaycanın möhtəşəm qələbəsini həzm edə bilməyən siyasi dairələrin diktəsi ilə Ermənistanda min bir oyundan çıxırlar. Məqsəd bu işğalçı ölkədə hansısa təlim keçirmək yox, sadəcə olaraq, Ermənistanın ayağa qalxmasına kömək etmək, Azərbaycana hədə-qorxu gəlməkdir.

Elə ona görə də Prezident İlham Əliyev son nitqlərindən birində xatırladıb ki, bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib: "Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu, demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq – biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir".

# "20 Minutos" İspaniya nəşri Azərbaycanın mina savaşını şərh edib

**İspaniyada yayımlanan "20 Minutos" nəşrində Azərbaycanın üzləşdiyi mina problemi, o cümlədən mina hadisələrinin qurbanları, minatəmizləmə fəaliyyəti və minaaxtaran qadınlardan bəhs edən məqalə dərc olunub.**

Bu ilin mayında ölkəmizdə səfərdə olmuş və azad edilən ərazilərdə həyata keçirilən minatəmizləmə fəaliyyətini yaxından müşahidə etmiş jurnalist-fotoqraf Qervasio Sançez Fernandez tərəfindən qələmə alınan məqalədə təxminən 35 il davam etmiş münaqişə nəticəsində işğal altında olmuş ərazilərdə bütün şəhər və kəndlərin xarabalığa çevrildiyi bildirilib.

Yazıda xüsusi vurğulanıb ki, Qarabağ dünyanın piyada və tank əleyhinə mina və partlamamış hərbi sursatla (PHS) ən çox çirklənmiş ərazilərindən biridir. Hesablamalara görə, bu ərazilərdə ən azı 1,5 milyon mina basdırılıb və onlar hər an partlaya bilər. Müəllif 1991-ci ildən 2024-cü il mayın 2-dək mina qurbanlarının sayının 3500-ə yaxın olduğunu bildirib. Qeyd edib ki, mina qurbanlarından 358 nəfəri uşaq, 38-i isə qadındır. Son üç il yarım ərzində mina qurbanlarının sayı 359 nəfər təşkil edir ki, onların yarısı mülki şəxslərdir. Mina qurbanlarından 67-si həlak olub. Qalanları ağır xəsarət alıb, bir çoxlarının bədən üzvlərinin bir hissəsi amputasiya edilib. Bu faciəvi hadisələrin böyük əksəriyyəti minatəmizləmə əməliyyatları, kənd təsərrüfatı işləri və infrastrukturun bərpası prosesi zamanı baş verib.







***XQ***

# Şuşa Zirvə görüşü Türk dünyasını yeni ortaq hədəflərə yönəltdi



**Azərbaycan Türk dünyasının qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylərini təşəbbüskarlıqla davam etdirir.**

Qədim tarixi köklər, etnik birlik, ortaq mədəniyyət, oxşar adət-ənənələr, zəngin milli-mənəvi dəyərlər və humanist dini inanc üzərində ölkəmizin fəal iştirakı ilə yenidən formalaşan çoxtərəfli əməkdaşlıq Türk Dövlətləri Təşkilatını Avrasiyanın nüfuzlu güc mərkəzinə çevirir.

Türk xalqları dünya sivilizasiyasına böyük töhfələr vermiş, çoxlu dövlətlər, imperiyalar yaratmış, bəşəriyyətə dahi şəxsiyyətlər bəxş etmişlər. Azərbaycan bu yüksəlişin mərkəzi coğrafiyası kimi ortaq tariximizdə də silinməz izlər qoyub. Sovet imperiyasının süqutundan sonra yaranmış tarixi şəraitdə ölkəmiz müstəqillik qazanmış qardaş dövlətlər də daxil olmaqla Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi üçün önəmli addımlar atmış və layiqli töhfələr vermişdir.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi bu strateji xətti uğurla davam etdirən Prezident İlham Əliyev Türk ölkələri ilə əlaqələrin genişləndirilməsini, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsini Azərbaycanın xarici siyasətinin prioritet istiqaməti elan etmişdir. "Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır". Bu fikirləri isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari ilin iyul ayının 6-da Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündəki çıxışı zamanı səsləndirdi.

Dövlətimizin başçısı Şuşa zirvəsindən dünyaya bəyan etdi ki, Türk dünyası böyük coğrafi məkanı əhatə edir, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensial döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslar, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tarix, habelə mədəniyyət türk dünyasının böyük sərvətidir.

Qardaş Türk ölkələri və toplumları ilə qarşılıqlı-faydalı və çoxşaxəli əməkdaşlıq əlaqələri quran Azərbaycan Türk Dövlətləri Təşkilatının fəaliyyətinin genişləndirilməsi üçün bütün imkan və vasitələri səfərbər edib. Türk Dövlətləri Təşkilatının cari büdcəsinin və strukturunun nəzərdə tutulan hədəflərin reallaşdırılması üçün yetərli olmadığını nəzərə alaraq, Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürmüşdür. Şərq–Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi qarşıda duran prioritet məsələlərdən biridir. Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılmışdır.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir, artan yükdaşımalarını nəzərə alaraq Bakı gəmiqayırma zavodunda daha 6 gəmi inşa edilir. Növbəti il Laçın Beynəlxalq Hava Limanının istismara verilməsi, Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyətinin 15 milyon tondan 25 milyon tona qədər genişləndirilməsi də bu baxımdan xüsusi əhəmiyyət kəsb edəcəkdir.

Türk dövlətləri arasında enerji sahəsində mövcüd olan strateji tərəfdaşlıq, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlıq da olduqca əhəmiyyətlidir. Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək yolu" layihəsi isə son illərin mühüm təşəbbüslərindən biridir.

Qarşıdakı illərdə türk dövlətləri arasında mövcud hərtərəfli əlaqələr daha da genişləndiriləcəkdir. Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə imzalanan "Qarabağ Bəyannaməsi" bu baxımdan mühüm prinsipləri və yeni hədəfləri özündə ehtiva edir. İqtisadi inkişaf, regional əlaqələr, iqlim tədbirləri, texnologiya və müdafiə sahəsində əməkdaşlıq kimi sahələri əhatə edən, üzv ölkələr arasında mədəni və tarixi bağları bir daha təsdiqləyən "Qarabağ Bəyannaməsi" türk dünyasının həmrəyliyini və Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir.

"Qarabağ Bəyannaməsi"nin imzalanması üçün məhz Şuşa şəhərinin seçilməsi, onun tarixi vacibliyini daha da artırır. Belə ki, Qarabağın tacı Şuşa şəhəri həmişə Azərbaycanın və regionun mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 30 ilə yaxın əsarət altında olan Şuşanın Vətən müharibəsi nəticəsində işğaldan azad olunması, onun bərpası Azərbaycan kimi, onun müttəfiqləri üçün də tarixi dəyər daşımaqdadır.

Yeri gəlmişkən bildirək ki, Azərbaycan bu il COP29 qlobal konfransına evsahibliyi edəcək. COP29-a sədrlik və bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan böyük etimadının daha bir nümunəsidir. Bir məsələyə diqqət yetirək ki, ötən 29 ildə keçmiş ittifaq respublikalarının heç birində belə bir qlobal hədəfli beynəlxalq məclis keçirilməyib. Azərbaycan keçmiş sovet məkanında ilk respublikadır ki, bu mötəbər toplantıya evsahibliyi edəcək.

Belə möhtəşəm tədbirin Azərbaycanda keçirilməsinə türkdilli dövlətlər ümumi maraqdan çıxış edərək böyük dəstək vermişdir. Bu məsələ ilə bağlı həmrəylik Zirvə görüşündə iştirak edən TDT liderlərinin çıxışlarında bir daha öz əksini tapdı. Qeyd olundu ki,

Azərbaycanın COP29-a ev sahibliyi regional əməkdaşlıq baxımından da böyük önəm daşıyır.

Xalqımız əmindir ki, Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü ölkələrimiz arasında həmrəyliyin və qarşılıqlı etimadın daha da güclənməsinə, Türk dünyasının birgə səylərlə daha parlaq gələcəyə doğru irəliləməsinə geniş meydan açması ilə ortaq tariximizdə silinməz iz qoyacaqdır.

***Niyazi BAYRAMOV,***
***Gəncə Şəhər***
***İcra Hakimiyyətinin başçısı***

# Naxçıvan xəbərləri

## "Ordubad" Qoruğunun mühafizəsi gücləndirilib

**Prezident İlham Əliyevin "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında müvafiq sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti ötən həftə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonasının və ərazisinin xüsusi rejiminin təsdiq edilməsi haqqında qərar qəbul etmişdir.**



Qərarda qoruğun tarix-memarlıq görkəmini, ərazisində yerləşən abidələrin təhlükəsizliyini, onların funksional təyinatını və uzunömürlülüyünü təmin etmək, habelə qoruğun ətrafında formalaşmış təbii landşaftı mənfi vizual təsirlərdən qorumaq məqsədilə qoruğun mühafizə (bufer) zonasının yaradılması, qoruğun Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən idarə edilməsi, qoruğun ərazisində yerləşən dövlət mülkiyyətində olan abidələrin nazirliyin balansında olması, qoruğun hüdudları daxilində yerləşən torpaq sahəsi və üzərindəki tikililərin yeraltı mədəni təbəqələrlə birlikdə xüsusi rejimli sahə hesab olunması və digər mühüm məsələlər öz əksini tapmışdır.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən XQ-yə verilən məlumatda bildirilir ki, hökumətin qərarına uyğun olaraq, qoruq ərazisində həyata keçirilən işlər Ordubad şəhərinin baş planına, qoruğun statusuna, onun müfəssəl planına, inkişaf konsepsiyasına, tarix-memarlıq görkəminə, planlaşma strukturuna uyğun olmalı və təşəkkül tapmış həcm-məkan ölçülərini pozmamalıdır.

Bundan sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin müvafiq rəyi olmadan qoruq ərazisində torpaq, söküntü, tikinti-quraşdırma, yenidənqurma, abadlıq və təmir işləri aparılması məhdudlaşdırılmışdır. Qoruğun ərazisində arxeoloji qazıntı işləri aparmaq üçün isə müvafiq icazə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən verilir. Hazırda qoruğun fəaliyyətinin təşkili istiqamətində işlər davam etdirilir.

## Şəffaf və rəqabətli hərrac



**Dünən Naxçıvan Biznes Mərkəzində şəffaf və rəqabətli hərrac mövzusunda toplantı keçirilib. Tədbirə müvafiq dövlət qurumları və nazirliklərin nümayəndələri, eləcə də hərrac iştirakçıları qatılıblar.**

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat nazirinin müavini Abbas İsmayılov bildirib ki, muxtar respublikada iqtisadi fəallığı gücləndirmək və yeni yanaşmalar tətbiq etməklə özəlləşdirmə prosedurlarının, hərraclar vasitəsilə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan əmlakların, torpaqların, qeyri-yaşayış sahələrinin icarəyə verilməsinin və satışının elektronlaşdırılması, bu sahədə şəffaflığın, operativliyin təmin olunması prioritet kimi müəyyən edilib.

Diqqətə çatdırılıb ki, 2024-cü ilin 6 ayı ərzində 102 dövlət əmlakının özəlləşdirilməsi başa çatıb ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,8 dəfə çox olub. Bu ilin əvvəllərindən başlayaraq daşınmaz dövlət əmlakının icarəyə verilməsi sahəsində də mühüm tədbirlər həyata keçirilib.

Sonra hərracın keçirilməsinə başlanılıb. Hərraca 11 nəqliyyat vasitəsi çıxarılıb. Hərraca çıxarılan dövlət əmlaklarına, ümumilikdə 21 sifariş qəbul olunub. Hərracda nəqliyyat vasitələrinin özəlləşdirilməsinə maraq böyük olub, hərrac şəffaf və rəqabətli keçib.

## NDU beynəlxalq sertifikat qazanıb

**Ölkənin təhsil məkanında ilk dəfə Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən IELTS qeydiyyat və imtahan mərkəzində növbəti imtahan uğurla başa çatıb. Bu imtahanda uğurlu nəticə göstərənlərə beynəlxalq sertifikatlar təqdim edilib.**

Bu münasibətlə keçirilən tədbirdə universitetin rektoru Elbrus İsayev diqqətə çatdırıb ki, Britaniya Şurası ilə səmərəli əməkdaşlıq çərçivəsində IELTS mərkəzi muxtar respublikada populyarlaşıb və imtahanda iştirak edənlərin sayında artım dinamikası hiss olunur. Muxtar respublikada ingilisdilli kadrların yetişdirilməsində NDU-nin Beynəlxalq Məktəbinin "Kembric" statusu alması gələcəkdə bu sahədə peşəkar kadrların artmasına hesablanmış ən mühüm addımdır.

Cənubi Qafqaz ölkələri üzrə imtahanlar departamentinin müdiri Nərgiz Əkbərova dünyanın 3 mindən çox nüfuzlu universitetində tətbiq olunan IELTS imtahanlarının üstünlüklərindən bəhs edib. IELTS mərkəzinin koordinatoru Bayram Əliyev qeyd edib ki, ingilisdilli təhsilin həyata keçirilməsində mərkəzin əhəmiyyətli rolu var.



Britaniya Şurasının Azərbaycanda ilk dəfə Naxçıvan Dövlət Universitetində açılan yeganə imtahan mərkəzi olduğunu təsdiq edən sertifikat ali məktəbə təqdim edilib. IELTS imtahanında yüksək nəticə göstərənlərə isə beynəlxalq sertifikatlar verilib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

## Audiovizual Şuranın növbəti iclası

**Əvvəlcə audiovizual media sahəsində fəaliyyətlə bağlı lisenziya alınması üçün müraciətlər müzakirəyə çıxarılıb və müvafiq qərarlar verilib. Belə ki, Audiovizual Şuraya daxil olan müraciətlər və həmin müraciətlərin müvafiq yoxlamaları nəticəsində "Aznet Technologies" Qapalı Səhmdar Cəmiyyətinə universal platforma operatoru (operatorun xidmət adı: "Aznet" olmaqla) lisenziyası, "Metaflix" Məhdud Məsuliyyətli Cəmiyyətinə "Metaflix" xidmət adı ilə universal platforma operatoru və sifarişli yayım xidməti provayderi lisenziyaları, "Megogo" Məhdud Məsuliyyətli Cəmiyyətinə "Megogo" xidmət adı ilə universal platforma operatoru və sifarişli yayım xidməti provayderi lisenziyaları olmaqla, ümumilikdə 5 lisenziya verilib.**

Sonra iclasda Audiovizual Şuraya daxil olan müraciətlər və həmin müraciətlər əsasında aparılmış monitorinqlər nəticəsində müstəsna yayım hüququnun pozulması ilə bağlı təsbit olunmuş faktlar müzakirəyə çıxarılıb. Monitorinqlər nəticəsində "ATV" televiziya redaksiyasının (kanalının) efirində aprelin 18-də saat 05:29-06:38 aralığında, "ARB" televiziya redaksiyasının (kanalının) efirində mayın 21-də saat 03:05-04:33 aralığında, "ARB Günəş" televiziya redaksiyasının (kanalının) efirində iyunun 13-də saat 18:25-19:29 aralığında Azərbaycan Respublikası ərazisində müstəsna yayım hüququ digər audiovizual yayımçıya məxsus olan proqramların (bədii və cizgi filmlərinin) icazəsiz yayımlanması faktları öz təsdiqini tapıb. Şura üzvlərinin bu məsələnin diqqətdə saxlanılması ilə bağlı yayımçıları əvvəlki dövrlərdə xəbərdar etməsi və müvafiq tövsiyələr verməsini nəzərə alaraq bu dəfə həmin televiziya yayımçılarının ("ARB 24" MMC-nin "ARB" kanalının, "Azad Azərbaycan" Müstəqil Teleradio Kompaniyasının "ATV" kanalının və "RTV" MMC-nin "ARB Günəş" kanalının) proqramlarının yayımının iyulun 11-də 3 saatlıq dayandırılması barədə müvafiq qərarlar qəbul olunub.

## İrəvanda daha bir atışma

**Dünən axşam saatlarında İrəvanda hakim "Vətəndaş müqaviləsi" partiyasının Erebuni 33 ünvanındakı ofisinin yaxınlığında atışma olub.**



Bu barədə Ermənistan mətbuatında İrəvan Polis İdarəsinə istinadla yayılan məlumatda bildirilib ki, atışma nəticəsində 27 yaşlı İrəvan sakini İ.Harutyun güllə yarası alıb. O, Erebuni tibb mərkəzinə yerləşdirilib. Odlu silahdan atəş açan şəxs isə "Nor Areşen" restoranının sahibinin oğlu Q.Armen olub və o, saxlanılıb.

Hadisənin səbəbi barədə məlumat verilməyib, siyasi motivin olması istisna edilmir.

***XQ***

# Mərkəzi Seçki Komissiyasının iclası

**İyulun 9-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, əvvəlcə MSK-nın iyulun 6-da keçirilən iclasının protokolu təsdiq edilib. Sonra bəzi seçki dairələri üzrə seçki məntəqələri ilə bağlı tədbirlərə dair məsələyə baxılıb.

Diqqətə çatdırılıb ki, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar olaraq, işğaldan azad edilmiş ərazilərdə məskunlaşan, eləcə də uzunmüddətli bərpa, tikinti-quruculuq və abadlıq işlərində çalışan çoxsaylı seçicilərin seçki hüquqlarının təmin edilməsi üçün həmin ərazilərdə yeni seçki məntəqələrinin yaradılması zərurətə çevrilib. Komissiya üzvlərinin məsələ ətrafında müzakirələrinin ardınca yerli və digər şərait nəzərə alınmaqla, seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının vacibliyi əsas götürülərək, 84 saylı Füzuli, 118 saylı Ağdam–Xocalı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 124 saylı Şuşa–Ağdam–Xocavənd və 125 saylı Zəngilan–Qubadlı seçki dairələrinin hüdudları daxilində Seçki Məcəlləsinin tələblərinə uyğun qaydada yeni seçki məntəqələrinin yaradılması və məntəqə seçki komissiyalarının təşkili müvafiq dairə seçki komissiyalarına həvalə edilib.

Daha sonra VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Adil Abış oğlu Əliyevin deputat səlahiyyətlərinə xitam verilməsi məsələsinə baxılıb. Bildirilib ki, Milli Məclisin deputatı Adil Əliyev Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin edildiyinə görə ölkə Konstitusiyasının və Seçki Məcəlləsinin tələblərinə əsasən deputat səlahiyyətlərinə xitam verilməlidir. MSK qeyd olunanları nəzərə alaraq qanunvericiliyə uyğun qaydada Adil Əliyevin deputat səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul edib.

Komissiyanın iclasında Milli Məclisə növbədənkənar seçkilərdə Azərbaycan Xalq Partiyası, Azərbaycan Demokrat Partiyası, Milli Cəbhə Partiyası, Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Böyük Azərbaycan Partiyası və Ağ Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə də baxılıb. Sözügedən partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

Xarici qurum və media subyektləri nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə də baxılıb.

*XQ*

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 6 iyul tarixli iclas protokolunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 6 iyul tarixli iclasının protokolu təsdiq edilsin.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Böyük Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Böyük Azərbaycan Partiyası Siyasi Şurasının 2024-cü il 6 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Böyük Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Vüqar Cavad oğlu Qasımov
İlham Müseyib oğlu Bəkirli
Fikrət İlyas oğlu Cəfərov
Ramiz Şərif oğlu Mahmudov
Elçin Dursun oğlu Nəbiyev
Ələkbər Ağabəy oğlu Həziyev
Tofiq Haqverdi oğlu İmanov
Aydın Əlirza oğlu Mirzəyev
Anar Həsən oğlu Musayev
İlqar Abdurahman oğlu İbrahimov
Səfa Sevdagər oğlu Əzimov
Pərvin Çingiz oğlu Həsənov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
Azad Məmməd oğlu Məmmədov
Valeh Bəylər oğlu Sadıqov
Ziya Əjdər oğlu Ələkbərov
Hikmət Məmmədəli oğlu Əliyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Milli Cəbhə Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Milli Cəbhə Partiyası İdarə Heyətinin 2024-cü il 2 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Milli Cəbhə Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Kamil Möhbalı oğlu Babayev
Vüqar Piri oğlu Dadaşov
Murad Valeh oğlu Alışov
Qoşqar Piri oğlu Dadaşov
Ehtiram Təvəkkül oğlu Mehtiyev

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**
Sənan Rafiq oğlu Daşdəmirli.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyası İdarə Heyətinin 2024-cü il 6 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Nicat Pənah oğlu Qədirli
Akif Tofiq oğlu Qəmbərov
Mösüm Cabar oğlu Mahmudov
Yusif Hüseyn oğlu Süleymanov
Yaşar Rəşid oğlu Kələntərov
Vaqif Şirin oğlu Abışov
Amil Faiq oğlu İsmayılzadə

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
İlqar Əlixan oğlu Məmmədxanov
Etiram Etibar oğlu Nəsirli
Seynur Soltan oğlu İsmayılov
Baxçalı İlham oğlu Əliyev
İsmayıl Samir oğlu Cəfərov
Sahib Tofiq oğlu Həşimov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Xalq Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Xalq Partiyası İdarə Heyətinin 2024-cü il 2 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Xalq Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Pənah Çodar oğlu Hüseyn
Qiyas Böyükağa oğlu Sadıqov
Məzahir İsrayıl oğlu İsrayılov
Kənan Zaman oğlu Əsgərli
Mübariz Qədir oğlu İsmayılov
Günay Pənah qızı Hüseyn
Hüseyn Mehralı oğlu Behbudov
Vaqif İlyas oğlu Allahverdi
Mirsəmid Mirelyas oğlu Həmzəyev
Mircəlal Mirsəmid oğlu Həmzəyev
Əltoğrul Adil oğlu Hüseyn
Aynur Vidadi qızı Hüseyn
Namik Məmmədağa oğlu Nəsirli
Nazim Məmmədağa oğlu Nəsirov
Novruz Misir oğlu Quluzadə
Xanoğlan Soltan oğlu Qulu
Əvəz Bəbirxan oğlu Temirxan
Məhəmməd Novruz oğlu Quluzadə

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**
Rais Əlikiram oğlu Atakişiyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Milli İstiqlal Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Milli İstiqlal Partiyası Siyasi Şurasının 2024-cü il 6 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Milli İstiqlal Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Rəşad Aydın oğlu Bayramov
Yəhya Məhəmmədəli oğlu Həsənov
Elşən Mansur oğlu Mustafayev
Çingiz İmris oğlu Şahbazi
Məmmədəli Talıb oğlu Səfərov
Tapdıq Həsən oğlu Həsənov
Fəridə Həmdulla qızı Qurbanova
Sərxan Bəhmən oğlu Xanəlizadə
Xəqani Müslüm oğlu Cəfərov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
Afsəddin Qinyaz oğlu Nəbiyev
Məmməd Əsəd oğlu Qələndərli.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Demokrat Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Demokrat Partiyası Ali Məclisinin 2024-cü il 4 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Demokrat Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Həsrət Qurbanəli oğlu Rüstəmov
Taliyət Məhəmməd oğlu Əliyev
Nurəddin Mənsim oğlu İsmayılov
Nazilə Cahangir qızı Soltanova
Zakir Hüseyn oğlu Hüseynov
Cəsur Tofiq oğlu Məmmədov
Kamran Yaşar oğlu Nəsirli
Murad Salədin oğlu Kərimov
Nizami Kamil oğlu Məmmədzadə
Nizami Sabir oğlu Məmmədov
Nəvayi Nəcəf oğlu Quliyev
Səidə Bahadur qızı Hüseynova
Cəsur Mehralı oğlu Dünyamalıyev
Ramiz Şirzad oğlu Məmmədov
Teymur Qara oğlu Məmmədov
Əlirza Xudaverdi oğlu Tağıyev
Xaliddin Baloğlan oğlu Cahangirov
Musa Əhməd oğlu Əhmədov
İsmayıl Kərəm oğlu Əsgərov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**
Daşqın Ağarza oğlu Nuriyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ağ Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ağ Partiyası səlahiyyətli nümayəndələr təyin etmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Ağ Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Pərviz Hacbala oğlu Əliosmanov
Kənan Hakim oğlu Məmmədov
Şahin Cəfər oğlu Abdullayev
Zabit Mürşüd oğlu Hacıyev
İmran Zakir oğlu Məmmədov
Elşən Misir oğlu Qafarov
Şahin Balasər oğlu Rəhimov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Ümumdünya Gömrük Təşkilatı Orta Dəhlizi himayə edir

## Qurum bu məqsədlə Azərbaycanla birgə Əməkdaşlıq Fondu yaradır

**Azərbaycanın Dövlət Gömrük Komitəsi (DGK) Ümumdünya Gömrük Təşkilatı (ÜGT) ilə "CCF Azerbaijan" Gömrük Əməkdaşlıq Fondunun yaradılması barədə razılığa gəlib.**




ÜGT-nin yaydığı məlumata əsasən, iyunun 27-dən 29-dək ÜGT Şurasının 143/144 sessiyası çərçivəsində bu qurumun Baş katibi Yan Sonders və Azərbaycanın DGK-nin sədri Şahin Bağırov tərəfindən "CCF Azerbaijan" fondunun yaradılması üzrə qrant sazişi imzalanıb. Belə bir fondun yaradılmasında məqsəd gömrük əməkdaşlığının gücləndirilməsi və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə potensialın artırılması olub.

Məlumatda bildirilib ki, son illərdə ÜGT region ölkələrindən Orta Dəhliz boyunca gömrük əlaqələrinin yaxşılaşdırılmasına dəstək göstərmək üçün çoxsaylı müraciətlər alıb. Bu müraciətlərdə dəhlizin mühüm ticarət marşrutu kimi əhəmiyyəti, səmərəli və təhlükəsiz ticarət axınlarını asanlaşdırmaq üçün etibarlı gömrük prosedurlarına ehtiyac duyulduğu diqqətə çatdırılıb. Eyni zamanda, "CCF Azerbaijan" fondunun yaradılması ilə sadalanan tələblərin yerinə yetirilməsi və ticarətin qloballaşması ilə əlaqədar gömrük idarələrinin üzləşdiyi problemlərin həlli qarşıya mühüm vəzifə kimi qoyulub.

Qeyd edilib ki, "CCF Azərbaycan" bir sıra fəaliyyətləri, o cümlədən gömrük işçilərinin təlimini və benefisiar gömrük administrasiyaları üçün praktikumların, seminarların və görüşlərin təşkilini də dəstəkləyəcək. Bu fəaliyyətlər isə ticarətin asanlaşdırılmasını təşviq etmək və hüquq-mühafizə, gömrük xidmətlərinin müasirləşdirilməsi və təkmilləşdirilməsi, həmçinin gömrük işçilərinin səriştə və bacarıqlarının artırılması məqsədi daşıyır.

Yeri gəlmişkən, xatırladaq ki, cari ilin may ayında Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin– Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın informasiya sistemlərinin də inteqrasiyasını nəzərdə tutan sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında saziş ratifikasiya edilib. Bu sazişlə Orta Dəhliz boyunca xarici ticarət fəaliyyətinin sadələşdirilməsi nəzərdə tutulub.

Xatırladaq ki, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın xarici ticarətində əsas pay Rusiyadan Avropaya Çin vasitəsi ilə keçir. Yuxarıda sözügedən yeni saziş isə digər dəhlizin – Xəzər dənizi, Azərbaycan və Türkiyədən keçən Orta Dəhlizin inkişafına yönəlir. 2010-cu ildən 2022-ci ilə qədər bu sazişdə iştirak edən ölkələr arasında ticarət dövriyyəsinin üç dəfə artması xüsusi diqqət çəkir. Bu, gələcək artım üçün böyük potensialdan xəbər verir.

Sadələşdirilmiş gömrük dəhlizinin aşağıdakı üstünlükləri var: ticarət operatorlarına buraxılış məntəqələrində prioritet xidmət göstəriləcək və bu, gözləmə vaxtlarını azaldacaq; gömrük rəsmiləşdirilməsi prosedurları ayrı-ayrı hərəkət zolaqlarından istifadə edilməklə optimallaşdırılacaq və bu, rəsmiləşdirmə müddətlərini daha da azaldacaq; gömrük yoxlanılması yalnız gömrük qanunvericiliyinin pozulması riskinin müəyyənləşdirildiyi hallarda aparılacaq və bu, dayanma müddətini və xərcləri azaltmağa imkan verəcək.

Sadələşdirilmiş gömrük dəhlizi haqqında saziş konkret sənaye sahələrini və gömrük rəsmiləşdirilməsi üçün malların seçimini məhdudlaşdırmır. Bu, o deməkdir ki, ticarət operatorları bütün növ mallar üçün sadələşdirilmiş prosedurlardan istifadə edə bilərlər.

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə uzanan beynəlxalq nəqliyyat dəhlizidir. Ötən il Orta Dəhliz üzrə yükdaşımaların həcmi 65 faiz və ya təxminən 3 milyon ton artıb. 2024-cü ildə bu marşrutla yükdaşımaların 4 milyon tonu keçəcəyi proqnozlaşdırılır.

Son illərdə Azərbaycan Orta Dəhlizin ən yüksək səviyyədə reallaşdırılması üçün öz üzərinə düşən işləri tam yerinə yetirib. Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin istifadəyə verilməsi və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma gücünün artırılması, eləcə də respublikada nəqliyyat və logistika infrastrukturunun yaxşılaşdırılması ilə bağlı genişmiqyaslı layihələr həyata keçirib.

Hazırda yük daşımaların artmasında Orta Dəhlizin fəaliyyəti daha çox diqqət çəkir. Bu marşrut Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük axınının artırılmasına xidmət etməklə region ölkələrinin ticarət-iqtisadi əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.

Azərbaycan Orta Dəhlizin inkişafına daim önəm verib, bu istiqamətdə reallaşdırılan layihələrin gerçəkləşdirilməsini diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyev "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda bu gün Orta Dəhlizə heç vaxt olmadığı qədər ehtiyac yarandığını, Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını vurğulayıb. Ölkə rəhbəri daha sonra deyib: "Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı biz Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasimini keçirdik. Beləliklə, bu, ölkələrimiz arasında əməkdaşlığımızın birgə nümayişi idi. Sözsüz ki, Qazaxıstanla Çin daha fəal əməkdaşlıq edir. Lakin Azərbaycanla Çin də əməkdaşlıqlarını çox ümidverici və çox nəticəyönümlü şəkildə inkişaf etdirir".

Göründüyü kimi, Azərbaycanda ölkəmizlə bağlı olan bütün nəqliyyat marşrutlarının, o cümlədən Orta Dəhlizin inkişafına xüsusi diqqət yetirilib. Bununla əlaqədar bir sıra mühüm layihələr və proqramlar reallaşdırılıb. Belə ki, dövlət başçısının rəhbərliyi ilə "Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006-2015-ci illər üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı", "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə Tədbirlər Planı", "Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsi və inkişafına dair Dövlət Proqramı (2006-2015-ci illər)", "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı" və s. müxtəlif istiqamətləri əhatə edən çoxsaylı proqramlar uğurla həyata keçirilib.

Azərbaycanın nəqliyyat dəhlizlərində rolunun artırılması baxımında ötən il noyabrın 23-də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün" Fəaliyyət Planının əhəmiyyətini də vurğulamaq lazımdır.

Qeyd edək ki, son illər nəqliyyat sektorunda bu sahənin dayanıqlılıq, etibarlılıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi standartlarına uyğunluğu baxımından konkret və sistemli layihələr reallaşdırılıb. Sözügedən istiqamətdə aparılan dövlət siyasətində ölkəmizin sosial-iqtisadi inkişafına, əhalinin rifahının yüksəlməsinə, dövlətimizin iqtisadi qüdrətinin artmasına yönələn tədbirlər əhatə olunub. Aparılan siyasət institusional islahatlar yolu ilə idarəetmənin təkmilləşdirilməsi, nəqliyyat əməliyyatlarında informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə və dövlət tənzimləmə mexanizmlərinin tətbiqi yolu ilə sağlam rəqabət mühitinin formalaşması məqsədi daşıyıb.

# 6 ayda 102,7 milyon manat güzəştli kredit

**2024-cü ilin altı ayı ərzində 2744 layihənin maliyyələşdirilməsinə 102,7 milyon manat güzəştli kredit ödənilib.**



Sahibkarlığın İnkişafı Fondunun məlumatına görə, bu kreditlər hesabına 1556 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Qeyd edək ki, sahibkarlar SİF-in güzəştli kreditlərindən yararlanmaq üçün müvəkkil kredit təşkilatlarına müraciət etməlidirlər. Müvəkkil kredit təşkilatlarına fondun əməkdaşlıq etdiyi banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqları aiddir.

Sahibkarlığın İnkişafı Fondunun fəaliyyətini ifadə edən yuxarıdakı göstəricilər son illər ərzində respublikamızda özəl sektorun dinamik inkişafına yönələn diqqət və qayğıdan xəbər verir. Göründüyü kimi, bu gün də sözügedən istiqamətdə mühüm layihələr həyata keçirilir, investisiya təşviqi mexanizminin tətbiqi davam etdirilir. Eyni zamanda, iş adamlarının xərclərinin azalması məqsədilə onlara prioritet sahələr üzrə güzəştli kreditlər ayrılmasına xüsusi qayğı göstərilir. Başqa sözlə, güzəştli kreditlər qeyri-neft sektorunda sənaye istehsalı və emalı, o cümlədən aqrar emal, kənd təsərrüfatı və anbar kompleksləri, logistika xidməti, akvakultura, yaşıl və innovasiya yönümlü layihələrin icrasına yönəldilir.

Xatırladaq ki, regionlarda təhsil, turizm sahələri, Naxçıvan MR-də və işğaldan azad edilmiş ərazilərdə isə xidmət sektorları da güzəştli kreditlərin veriləcəyi prioritet sahələr sırasındadır.

# Qırğızıstan ölkəmizlə ikiqat vergiyə son qoyur

**Qırğızıstanın Nazirlər Kabineti "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in imzalanmasını təsdiqləyib.**



Qırğızıstan KİV-in bu barədə yayılan məlumatına görə, adıçəkilən saziş 2024-cü il aprelin 24-də Bakıda imzalanıb. Sazişin icrasına cavabdeh olan orqan İqtisadiyyat və Kommersiya Nazirliyi müəyyən edilib. Sənəd ratifikasiya məqsədilə Qırğızıstanın Joqorku Keneşinə göndərilib.

Saziş Qırğızıstan iqtisadiyyatına birbaşa xarici investisiyaların cəlb edilməsi vasitəsi kimi nəzərdən keçirilir. Bununla yanaşı, xarici şirkətlərə ikiqat vergitutmanın aradan qaldırılması və yalnız bir ölkədə vergitutma təminatının verilməsi yolu ilə ölkə iqtisadiyyatının müxtəlif sahələrinə investisiya yatırılmasına şərait yaradır.

Sazişin əsas məqsədləri bir dövlətin rezidentini digər razılığa gələn dövlətdə ayrı-seçkilik yaradan vergitutmadan qorumaq, vergidən yayınma və ya sazişin müddəalarından sui-istifadə hallarının qarşısını almaqdır.

Azərbaycanın Qırğızıstan iqtisadiyyatına yatırdığı investisiyaların həcmi 5,4 milyon ABŞ dolları, Qırğızıstanın ölkəmizə yatırdığı kapital qoyuluşlarının həcmi isə 5,54 milyon ABŞ dolları təşkil edir. Respublikamızda qeydiyyatdan keçmiş Qırğızıstan kapitallı 74 müəssisədən 23-ü fəaliyyət göstərir.

# "Abşeron" yatağının 1 yaşı tamam oldu

## Xəzərin bu zəngin mənbədən 1,2 milyard kubmetr qaz, 484 min ton kondensat çıxarılıb

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə öncə TotalEnergies və SOCAR hər biri 50 faiz paya malik idilər. 2023-cü ilin yayında, ilkin hasilata başlanıldığından bir qədər sonra isə "Abşeron" layihəsi ilə bağlı daha bir əlamətdar hadisə baş verib. Belə ki, avqust ayının 4-də SOCAR, "TotalEnergies" və ADNOC (Birləşmiş Ərəb Əmirlikləri) şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışına dair saziş imzalanıb. Satınalma tamamlandıqdan sonra ADNOC şirkəti "Abşeron" qaz-kondensat yatağında həmin paya sahib olub. Yerdə qalan iştirak payı isə hər biri 35 faiz olmaqla SOCAR və "TotalEnergies" şirkətləri arasında bölünüb.



Məlumat üçün bildiririk ki, "Abşeron" yatağı ötən əsrin 60-cı illərində Azərbaycan geoloqları tərəfindən kəşf edilib. O zaman mövcud texnika və texnologiyalar Xəzər dənizinin dərinliklərində qazma işlərinə imkan vermədiyindən yatağın istismarı mümkün olmayıb. Nəhayət, 1997-ci ildə "Abşeron" yatağı üzrə hasilatın pay bölgüsünə dair birinci beynəlxalq müqavilə imzalanıb. Layihə çərçivəsində görülən işlər uğursuz nəticələndiyindən 2005-ci ildə müqaviləyə xitam verilib. Bununla belə, Azərbaycan geoloqları, Azərbaycan Dövlət Neft Şirkətinin mütəxəssisləri "Abşeron" yatağında məhsuldar layların olması ilə bağlı fikirlərində israrlı idilər. Eyni zamanda, xarici tərəfdaşlar da burada kifayət qədər karbohidrogen ehtiyatlarının olmasına inanırdılar.

Məhz bu inamın nəticəsi olaraq 2009-cu il fevralın 27-də Azərbaycan Dövlət Neft Şirkəti ilə "Total" şirkəti arasında "Abşeron" yatağı üzrə yeni müqavilə imzalanıb. 2015-ci ildə isə "SOCAR" və "Total" birgə "JOCAP" (Joined Operating Company Absheron Petroleum) əməliyyat şirkətini yaradıblar. Beləliklə, "SOCAR Absheron" və "Total E&P Absheron" törəmə şirkətlərinin bərabər paylarla iştirak etdiyi JOCAP (Joined Operating Company Absheron Petroleum) birgə müəssisəsi "Abşeron" yatağının operatoru elan olunub. Müqavilənin 30 il müddətinə həyata keçirilməsi nəzərdə tutulur. 747 kvadratkilometr ərazini əhatə edən müqavilə sahəsində aparılan ilkin kəşfiyyat işləri uğurla nəticələnib. 2011-ci ilin sentyabr ayında "Abşeron"da çox böyük qaz ehtiyatlarının aşkar olunması rəsmən elan edilib.

2020-ci il sentyabrın 19-da isə "Abşeron" qaz-kondensat layihəsinin reallaşdırılması istiqamətində mühüm hadisə baş verib. Həmin gün Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib. Xatırladaq ki, "Abşeron" yatağında quraşdırılacaq dörd əsas dayaq bloku və digər sualtı qurğular SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən tikilib. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxildir.

Xəzər dənizində, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir. Elə bu zənginliyinə görə də "Abşeron" yatağının bir neçə mərhələdə işlənməsi nəzərdə tutulur. Yatağın işlənməsinin birinci mərhələsində ildə 1,5 milyard kubmetr qaz və 750 min ton kondensat hasilatı nəzərdə tutulur. Növbəti illərdə isə burada illik hasilatın ən azı 4 milyard kubmetrə qədər artırılacağı gözlənilir. Bütövlükdə isə, yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Qeyd edək ki, "Abşeron" yatağının birinci işlənmə çərçivəsində hasil edilən qaz daxili tələbatın ödənilməsinə yönəldilir. İlkin mərhələdə isə buradan ildə, təxminən, 1,5 milyard kubmetr qaz hasil edilməsi nəzərdə tutulur. Bu da Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə sayılmalıdır. Gələcəkdə isə yataqdan hasilatın dörd dəfəyədək artırılması planlaşdırılır.

Xatırladaq ki, yatağın tammiqyaslı işlənmə mərhələsi ilə bağlı yekun investisiya qərarının 2024-cü ilin sonunadək qəbul edilməsi nəzərdə tutulur. Hazırda layihənin iştirakçıları olan SOCAR, "TotalEnergies" və "ADNOC" şirkətləri yekun investisiya qərarı ilə bağlı məsləhətlər keçirirlər. Yekun investisiya qərarının nəzərdə tutulmuş vaxtda qəbul edilməsi "Abşeron" yatağının tammiqyaslı işlənilməsi çərçivəsində ilk qazın 2028-ci ildə əldə olunmasına imkan yaradacaq. Bu mərhələ çərçivəsində yataqdan ildə 5-6 milyard kubmetr qazın çıxarılması nəzərdə tutulur. İkinci mərhələ çərçivəsində çıxarılacaq qazın isə xarici bazarlarda satılması planlaşdırılır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Xəzərin küləyi də işıq saçacaq



**Avropa biznes dairələrinin "BNE Intellinews" (Business New Europe) nəşrində ölkəmizdə dəniz külək enerjisinin inkişaf perspektivlərindən bəhs edən məqalə dərc olunub.**

Məqalədə 2022-ci ildə Qlobal Gülək Enerjisi Şurasının (Global Wind Energy Council – GWEC) Avstraliya, Şri-Lanka və Türkiyə kimi ölkələrlə yanaşı, Azərbaycanı da dəniz külək enerjisindən istifadə potensialına görə lider dördlüyə daxil etməsi qeyd olunur.

Nəşrdə 2022-ci ildə keçirilən Bakı Enerji Forumunda Azərbaycanın dəniz külək enerjisinin inkişafı üzrə Yol xəritəsini təqdim etdiyi bildirilib. Azərbaycanın Energetika Nazirliyinin Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və Dünya Bankı ilə birgə hazırladığı həmin Yol xəritəsində 2040-cı ilədək respublikamızın Xəzər şelfində ümumi gücü 7,2 QVt olan dəniz külək stansiyalarının quraşdırılması nəzərdə tutulub.

Qeyd edək ki, bu, Azərbaycanın dekarbonizasiya və davamlı inkişaf sahəsində prioritetlərinə uyğundur. Dəniz külək enerjisinin quraşdırılmış gücü ölkənin enerji təchizatının 37 faizini gerçəkləşdirə bilər. Bundan əlavə, Azərbaycanda dəniz külək enerjisi mülayim templə inkişaf edərək 2040-cı ilədək quraşdırılmış gücünü 1,5 QVt-a çatdıracaq və 7 faiz karbonsuz enerji istehsalına nail olacaq.

Azərbaycanın sözügedən yol xəritəsində dəniz külək enerjisinin potensialından istifadəyə dair tövsiyələr də var. Bunlara 2030 və 2036-cı illər üçün hədəflərin müəyyən edilməsi, 200 MVt gücündə pilot layihənin və daha sonra böyük layihələrin işlənib hazırlanması, dənizdə yeni külək enerjisi imkanlarının açılması, infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinin cəlbi məqsədilə qabaqcıl qlobal təcrübələrin tətbiqinə başlanılması və dayanıqlı dəniz külək layihələri üzrə bir sıra tədbirləri reallaşdırılması və bu istiqamətlərdə dövlət təşkilatları əməkdaşlarının bilik və bacarıqlarının artırılması daxildir.

"BNE Intellinews" nəşrində bildirilir ki, 2023-cü ildə Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu görüşü və Yaşıl Enerji üzrə Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci görüşü zamanı Azərbaycanın Energetika Nazirliyi Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə bir sıra sənədlər, o cümlədən gücü 1,5 QVt-a qədər olan dəniz külək enerjisi layihəsinin həyata keçirilməsinə dair müqavilə imzalayıb. Bu ilin mayında isə ölkəmizin Energetika Nazirliyi ilə "ACWA Power" şirkəti arasında 200 MVt gücündə quruda külək elektrik stansiyasının tikintisi layihəsi üzrə Çərçivə Sazişi təsdiqini tapıb.

Bu il keçirilən Bakı Enerji Forumunda çıxış edən "ACWA Power" şirkətinin vitse-prezidenti və regional direktoru Abid Malik Azərbaycanın bərpaolunan enerji baxımından böyük perspektivə malik olduğunu bildirib. O vurğulayıb ki, siyasi cəhətdən sabit region olması ilə yanaşı, Azərbaycan tranzit marşrutları və dəhlizlərinin üstünlükləri baxımından da çox əlverişlidir və "ACWA Power" üçün əsas ölkədir.

Məqalədə qeyd olunur ki, Azərbaycan hökuməti "yaşıl enerji"yə keçidi sürətləndirməyə və bunu ən səmərəli şəkildə həyata keçirməyə sadiqdir. Dəniz külək enerjisi mədən yanacaqlarına tələbatın labüd azalması fonunda ölkə üçün faydalıdır. Azərbaycan bərpaolunan resurslardan istifadə etməklə istehsal olunacaq enerjinin qlobal ixracatçısına çevrilmək niyyətindədir.

Qeyd edək ki, statistik göstəricilərə görə, Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bu göstəricilər iqtisadi potensial üzrə isə 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min, günəş enerjisi üzrə 23 min meqavatdır.

Xatırladaq ki, Prezident İlham Əliyev Vətən müharibəsindən dərhal sonra Qarabağı və Şərqi Zəngəzuru, həmçinin Naxçıvanı "yaşıl enerji bölgəsi" adlandırıb və bu istiqamətdə genişmiqyaslı işlərə başlanılıb. Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və Günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilanda hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayılda külək enerjisi, Tərtər, Ağdam, Xocalı rayonlarında isə bioenerji ehtiyatlarının səmərəli istifadə edilməsi nəticəsində ölkəmiz, ümumilikdə, "Yaşıl enerji" istehsalçısına və istehlakçısına çevrilə bilər. Artıq Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından fəal şəkildə istifadə edilir. Yaxın illərdə burada hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq ki, bu da "yaşıl enerji"yə keçid prosesinə böyük töhfədir.

Azad edilən ərazilərdə indiyədək bir sıra yarımstansiya və su elektrik stansiyaları istifadəyə verilib. Məsələn, Azərbaycan–Türkiyə–Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsi çərçivəsində tikilən 330 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyası istismara verilib. Həmçinin "yaşıl enerji" strategiyasına uyğun olaraq Kəlbəcər rayonunda 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Paralel olaraq "AzərEnerji" tərəfindən Laçında yeni tikilən 110 kilovoltluq "Qorçu" yarımstansiyasının və "Laçın" şəhər qovşaq yarımstansiyasının da açılışı həyata keçirilib. Bununla yanaşı, Laçın rayonunda yenidən qurulan 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" kiçik su elektrik stansiyaları yenidən qurularaq istismara buraxılıb.

Hazırda ölkəmizdə "yaşıl enerji"dən istifadənin genişləndirilməsi məqsədilə Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq layihələri, o cümlədən dənizdə külək enerjisi üzrə Yol Xəritəsi, elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi və bərpaolunan enerji ixracı planları, "yaşıl enerji"nin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı, enerji keçidi, enerji effektivliyi, "yaşıl hidrogen", elektromobillik və digər məsələlər haqqında danışıqlar aparılır. Ümumiyyətlə, "yaşıl" inkişaf və qlobal iqlim hədəflərinə uyğun olaraq layihələrin vaxt itirmədən və səmərəli şəkildə həyata keçirilməsi məsələsi daim diqqətdə saxlanılır.

# "ACWA Power" ölkəmizin bərpaolunan enerji tərəfdaşıdır

**Azərbaycanla Səudiyyə Ərəbistanı arasında enerji sahəsində əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf edir. Son illər Asiya müttəfiqimiz ölkəmizin bərpaolunan enerji potensialına daha çox maraq göstərir. Bu da enerji əməkdaşlığına yeni məzmun gətirir.**



Bugünlərdə isə Azərbaycan və Səudiyyə Ərəbistanı enerji sahəsində əməkdaşlığı bir daha müzakirə ediblər. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsində məlumat verib. "Azərbaycanın energetika naziri, həmkarım Pərviz Şahbazovla birlikdə Səudiyyə Ərəbistanı Krallığının energetika naziri şahzadə Əbdüləziz bin Salman Əl-Səud ilə videokonfrans formatında keçirdiyimiz görüşdə energetika sahəsində fəal əməkdaşlığın dəstəklənməsi, "yaşıl" enerjiyə keçid sahəsində davam edən layihələr və potensial addımlar istiqamətində birgə fəaliyyəti nəzərdən keçirdik", – deyə M. Cabbarov paylaşımında qeyd edib.

Nazirin fikirlərindən də göründüyü kimi, ölkələrimiz arasında son zamanlar yeni mərhələyə qədəm qoyan iqtisadi əməkdaşlığın və bu sahədə qarşılıqlı fəaliyyətin lokomotivini məhz "yaşıl enerji" təşkil edir. Məlum olduğu kimi, 2022-ci il yanvarın 13-də Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında Xəzər dənizində külək enerjisi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənədə əsasən, 240 meqavat gücündə Xızı–Abşeron külək elektrik stansiyasının tikintisi məhz bu şirkət tərəfindən həyata keçirilməlidir. Ötən müddətdə layihənin reallaşdırılmasına 300 milyon ABŞ dolları ayrılıb. Bu isə Səudiyyə Ərəbistanı şirkətinin öz ölkəsindən kənarda yatırdığı ən böyük investisiyasıdır.

"Xızı–Abşeron" külək elektrik stansiyasının təməli 2022-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudin iştirakı ilə qoyulub. Dövlətimizin başçısı açılış mərasimindəki çıxışı zamanı deyib: " Mən tam əminəm ki, hazırda ölkəmizdə inşa ediləcək bu ən böyük bərpaolunan enerji stansiyasının açılışından sonra və bəlkə də açılışına qədər biz digər investisiya layihələrini icra etməyə başlayacağıq. O ki qaldı, bu stansiyanın açılışına, ümid edirəm, çox vaxt keçmədən biz bu böyük enerji layihəsinin açılışını birlikdə qeyd edəcəyik".

Artıq "ACWA Power" şirkətinin ölkəmizdə icra etdiyi "Xızı-Abşeron" külək enerjisi stansiyası layihəsi üzrə işlərin, təqribən, 20 faizi tamamlanıb. Bura, əsasən, mühəndislik işləri daxildir. İlkin hesablamalara görə, stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa və 300 min evi elektrik enerjisi ilə təmin etməyə imkan verəcək.

Ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən "Xızı-Abşeron" külək elektrik stansiyası layihəsi sənaye həcmli bərpaolunan ilk enerji layihələrindəndir. Eyni zamanda, stansiya Azərbaycanda ən böyük külək enerji stansiyası olacaq. Müqayisə üçün qeyd edək ki, hazırda ölkəmizdə ən böyük külək elektrik stansiyası Xızı rayonu ərazisində yerləşən 50 meqavat gücündə olan "Yeni Yaşma" stansiyasıdır. Burada hər birinin gücü 2,5 meqavat təşkil edən 20 külək turbini quraşdırıldığı halda, "Xızı-Abşeron"da isə hər birinin gücü 6,5 meqavat olan 37 ədəd külək turbini fəaliyyət göstərəcək.

Şirkətin müqavilələr və dövlətlə əlaqələr üzrə meneceri Süleyman Babayevin dediyinə görə, artıq "Xızı-Abşeron" külək enerjisi layihəsinin baş podratçısı olan "Power China HOEC" şirkəti tərəfindən mobilizasiya işləri tam başa çatdırılıb. Bu ay stansiyanın tikintisi üçün tələb olunan turbinlərin birinci partiyası Ələtdə yerləşən Bakı Beynəlxalq Dəniz Ticarəti Limanına gətiriləcək. Stansiyanın isə 2025-ci ilin 3-cü rübünün sonlarında istismara verilməsi nəzərdə tutulub.

Qeyd edək ki, "ACWA Power" şirkəti "Xızı-Abşeron" külək elektrik stansiyasından əlavə, Azərbaycanın Energetika Nazirliyi ilə ölkədə 1 qiqavat gücündə yerüstü külək elektrik stansiyasının, 1,5 qiqavat gücündə dəniz külək elektrik stansiyasının tikintisi imkanlarının öyrənilməsi və hidrogen layihələrinin həyata keçirilməsi ilə bağlı memorandum imzalayıb. Bundan əlavə, "ACWA Power" həm də Azərbaycan hökumətinin Qarabağ və Şərqi Zəngəzurda yaşıl enerji zonası yaratmaq təklifinə müsbət cavab verən iki şirkətdən biridir. Belə ki, adı çəkilən şirkət növbəti mərhələdə bu ərazilərdə külək və günəş elektrik stansiyalarının tikintisini məqsədəuyğun hesab etdiyini bildirib.

Yeri gəlmişkən, hazırda dünyanın bir sıra ölkələrində uğurla fəaliyyət göstərən "ACWA Power" günəş və külək enerjisi, duzsuzlaşdırma və hidrogen qurğularının istehsalı, eləcə də enerji saxlama layihələrini icra edən tanınmış şirkətdir. Şirkət dünya miqyasında 8 min meqavat bərpaolunan enerji istehsalına və ümumi quraşdırılmış elektrik gücü 30 min 200 meqavata, eləcə də 45 milyard dollar investisiya portfelinə malikdir.

# Naxçıvan "yaşıl enerji" dəhlizinə çevrilir

**Qlobal çağırışların önündə gedən Azərbaycan hazırda bir çox istiqamətlər üzrə yeni dövrün tələblərinə ən yüksək səviyyədə reaksiya verən ölkələrdən biri kimi tanınır. Belə çağırışlardan ən önəmlisi isə bütün dünyada ildən-ilə artan enerji tələbatının ekoloji cəhətdən təmiz, "yaşıl yollar"la ödənilməsidir. İstehsalı bərpaolunan enerji mənbələrinə əsaslanan bu cür potensial isə hazırda ölkə üzrə 27 min meqavat həcmində qiymətləndirilir.**

Bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinin Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürüldüyü və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının 30 faizə çatdırılmasının (hazırda 17 faiz təşkil edir) hədəf kimi müəyyənləşdirildiyi nəzərə alınmaqla bu istiqamətdə bir çox işlər görülür. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvanı da "yaşıl enerji" zonası elan etməsi bu hədəfə çatmağın mühüm istiqaməti kimi diqqət mərkəzində saxlanılır.



Muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti burada ekoloji cəhətdən təmiz enerji istehsalına imkan verir. Bu sırada isə Günəş enerjisindən istifadə imkanları daha çox ön plana çıxır. Hesablamalara görə, Naxçıvan ərazisində günəşli saatların orta illik miqdarı 2600-2800 saat, hər kvadratmetrə düşən Günəş enerjisinin intensivliyi isə 0,8-1,2 kilovat–saat təşkil edir. Bu isə o deməkdir ki, bütün fəsillərdə Günəş enerjisindən istifadə imkanı mövcuddur.

Qeyd etmək lazımdır ki, son illərdə muxtar respublikada ekoloji cəhətdən təmiz enerji istehsalı məqsədilə bir sıra addımlar atılıb. Xüsusilə yeni Günəş və külək elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanda istehsal edilən ümumi enerjidə bərpaolunan enerjinin payını artırıb. Bəs hazırda sözügedən sahədə hansı işlər görülür?

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətindən bildirilib ki, hazırda bu coğrafiyanın alternativ və bərpaolunan enerji potensialından istifadə ilə bağlı konkret dövlət sənədi mövcuddur. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamətin biri elektrik enerjisi istehsalının və ixracının artırılması ilə bağlıdır ki, burada da əsas məqsəd "yaşıl enerji" istehsalıdır. Adıçəkilən Dövlət Proqramının qəbul olunduğu 2023-cü ildə muxtar respublikanın elektrik stansiyalarında 474 milyon 569 min 561 kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bunun da 19,89 faizi su elektrik və 12,75 faizi günəş elektrik stansiyalarının payına düşür. Ümumilikdə alternativ və bərpaolunan enerji mənbələrində istehsal edilən elektrik enerjisi ümumi enerji istehsalında 32,64 faiz təşkil edib. Bununla da muxtar respublikada günəş elektrik stansiyalarının ümumi gücü 39 meqavata çatdırılıb.

Cari ilin 6 ayında isə ümumi elektrik enerjisi istehsalı 221 milyon 597 min 860 kilovat saat olub ki, bunun da 105 milyon 137 min 216 kilovat–saatı su elektrik, 30 milyon 337 milyon 144 kilovat–saatı isə günəş elektrik stansiyalarında istehsal olunub. Yeri gəlmişkən, hazırda Ordubad rayonu ərazisində 36 meqavatlıq "Ordubad" və 15,6 meqavatlıq "Tivi" su elektrik stansiyalarının, Şərur rayonunda isə 3 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Məlumatda qeyd olunur ki, ötən il sentyabrın 28–29-da Naxçıvanda keçirilən Azərbaycan-Tükiyə 3-cü Enerji Forumu və "Naxçıvan–yaşıl enerji zonası" beynəlxalq konfransında, eləcə də Bakı Enerji Forumunda Naxçıvanın enerji potensialı ilə bağlı xarici şirkətlərlə anlaşma memorandumları imzalanıb. Naxçıvanda "Masdar" şirkəti ilə ilkin mərhələdə gücü 150 meqavat olan Günəş Elektrik Stansiyasının tikilməsi də nəzərdə tutulub.

"Czech Engineering" şirkəti isə Sədərək rayonunun Türkiyə ilə sərhədində günəş elektrik stansiyalarının inşası, enerji ötürücülərinin tikilməsi və istifadəsi üzrə əməkdaşlıqda maraqlıdır. Eyni zamanda, Almaniyanın "Notus" şirkəti Naxçıvanda "yaşıl enerji" layihələrini reallaşdırmaq niyyətindədir. İlkin mərhələdə pilot layihə olaraq 70 meqavatlıq Günəş Elektrik Stansiyasının Naxçıvanın şimal-qərbində – Türkiyə ilə sərhəd xəttinə yaxın ərazidə tikilməsi nəzərdən keçirilir.

Göründüyü kimi, Naxçıvanın "yaşıl enerji" potensialına, xüsusilə bu enerjinin Türkiyə istiqamətində ixracına böyük maraq var. Buradan da o nəticəyə gəlmək mümkündür ki, yeni layihələr tezliklə Naxçıvanı "yaşıl enerji" dəhlizinə çevirəcək.

# Təmiz dünya uğrunda mübarizənin ön sırasında

**Energetika nazirinin müavini, COP29 Azərbaycan üzrə baş icraçı direktor Elnur Soltanov jurnalistlərə açıqlamasında bildirib ki, bu gün ölkəmizin əsas fəlsəfəsi həm neft, həm də qaz sahəsində qlobal enerji inqilablarının ön sırasında olmaqdır. "Azərbaycan, şübhəsiz ki, "yaşıl enerji" inqilabında, eləcə də CO2 emissiyası ilə mübarizədə ön sıralarda yer alacaq. COP29-a evsahibliyinin Azərbaycana verilməsi bizim "yaşıl enerji" sahəsində atdığımız addımlara verilən mükafatdır. Eyni zamanda, respublikamızın fəaliyyətini bütün dünyaya göstərmək üçün bu, bir fürsətdir", - deyə o bildirib.**



Elnur Soltanov diqqətə çatdırıb ki, bərpaolunan enerji potensialı baxımından çox zəngin olan Azərbaycan neft və qaz sahələrində region və dünya üçün təhlükəsizlik, habelə iqtisadi mənada dəyər mənbəyinə çevrilib. Neft və qaz dəhlizlərini yaradan və bununla bütün dünyaya uğur nümayiş etdirən Azərbaycan "yaşıl enerji"nin reallaşmasında da dünyada lider mövqedə olan ölkələrin sırasında yer alıb.

COP29 Azərbaycan üzrə baş icraçı direktor bildirib ki, COP29 çərçivəsində gündəlikdə duran əsas məqamlardan biri "yaşıl enerji" dəhlizi məsələsidir: "COP hər zaman, dediyim kimi, iqlim danışıqları prosesidir və bu proses artıq başlayıb. Noyabrın 11-nə qədər işimizin 50 faizindən çoxunu həll etməliyik ki, iki həftəlik proqram uğurla başa çatsın".

# Azərbaycan–İsrail COP29 əməkdaşlığı

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası COP29 iqlim məsələləri üzrə Azərbaycan və İsrail arasında əməkdaşlığı genişləndirmək üçün əlverişli imkandır. Bu barədə İsrailin Azərbaycandakı səfirinin müavini Yoav Bıstritski "X" sosial şəbəkəsindəki hesabında bildirib.**



"Biz hər iki ölkənin ekspertlərinin onlayn görüşündə iştirak etdik. Bu görüşdə oxşar səhralaşma problemləri və onların mümkün həlli yolları müzakirə olundu", – deyə Y.Bıstritski qeyd edib. Diplomat, həmçinin İsrail tərəfinin Bakıda keçiriləcək iqlim konfransı çərçivəsində birgə paralel tədbirlər keçirməyi planlaşdırdığını da vurğulayıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ,***
***Səbuhi HƏSƏNOV,***
***XQ***

Zahid Qaralov – 90

# Görkəmli pedaqoq, alim, ictimai xadim

**Ulu öndər Heydər Əliyevin layiqli silahdaşı, Yeni Azərbaycan Partiyasının "qızıl fondu" hesab olunan məşhur "91-lər" hərəkatının fəal iştirakçısı, YAP-ın yaradıcılarından biri, İdarə Heyəti və Siyasi Şurasının üzvü, Azərbaycan təhsilinin inkişafında misilsiz xidmətləri olan, görkəmli ictimai-siyasi xadim, pedaqoji elmlər doktoru, professor Zahid İbrahim oğlu Qaralov 90 il bundan əvvəl iyulun 10-da dünyaya gəlmişdir.**



Ulu Borçalının Başkeçid (indiki Dmanisi) rayonunun Qızılkilsə kənd orta məktəbində oxuduğumuz illərdə müəllimlər şagirdləri həvəsləndirmək üçün əlaçı məzunların adlarını çəkir, bizə nümunə göstərirdilər. Məktəbimizin belə məzunlarından biri də Zahid Qaralov idi.

Hələ onun Ormeşən kənd məktəbində oxuyarkən eksperiment yolu ilə beşinci sinifdən yeddinci sinfə keçirilməsi, Qızılkilsə kənd orta məktəbində hamının sevimlisinə çevrilməsi, xüsusən fizika və riyaziyyat fənlərindən xüsusi istedada sahib olması, ali məktəbə qəbulu zamanı aldığı yüksək qiymətlər, universiteti müvəffəqiyyətlə bitirməsi, sonra qısa zaman kəsiyində öz bacarığı, istedadı, zəhmətsevərliyi və mətinliyi ilə həm pedaqoji, həm də ölkənin ictimai həyatında və el arasında qazandığı böyük hörmət və izzət haqqında müəllimlərimizin söylədikləri ibrətamiz kəlamlar bizim üçün ən şirin nağıla, arzuya çevrilərdi. Hər bir yaxşı oxuyan şagirdin qəlbində ona bənzəməklə bağlı istək baş qaldırardı və bəzən də bu istəyi biz öz aramızda qısqanclıqla paylaşardıq.

Orta məktəbin sonuncu sinfində həyatda hansısa səmtə addımlamaq istədikdə heç özüm də bilmədən Zahid müəllimin böyük şəxsiyyəti və keçdiyi şərəfli həyat yolu mənə öz təsirini-sehr gücünü göstərdi. Maraqlarım məni Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə gətirib çıxartdı. Taleyimi fizika müəllimliyinə bağladım. Bundan sonra Zahid müəllimin fəaliyyəti ilə daha da yaxından maraqlanmağa, onu yenidən tanımağa başladım.

Mən müəllimliyə başlayanda, Zahid Qaralov respublikamızda və ondan kənarlarda öz elmi-pedaqoji nailiyyətləri və ictimai fəaliyyəti ilə kifayət qədər məşhur və diqqət mərkəzində idi. O, Azərbaycan SSR Maarif nazirinin müavini vəzifəsində işləyirdi. 1992-ci ildə bir müddət Təhsil Nazirliyinin Ali və Orta İxtisas Təhsili İdarəsində işləyərkən onu daha yaxından tanımağa başladım. Hamı onun haqqında xoş sözlər danışırdı: Zahid müəllim böyük insan, pedaqoq, alim və əsl vətəndaş idi. O, hər bir insana diqqət və qayğı ilə yanaşmaqda, dinləməkdə böyük səbir və təmkin sahibi idi. Onunla bir dəfə də olsun görüşmüş insanlar bu görüşün onların taleyində yeni bir təkana, unudulmaz bir xatirəyə, böyük xeyirxahlığa çevrildiyini minnətdarlıqla xatırlayırlar. Bir dəfə mən ondan bunun səbəbini soruşdum. Cavabında: "Mənə yaxşılıqların hamısı təmənnasız olunduğundan, mən də nə edirəmsə, təmənnasız edirəm", – sözlərini eşitdim.

Azərbaycanda fizika və fizikanın tədrisi metodikası elmlərinin yaranması və inkişafında müstəsna xidmətlər göstərmiş, bu sahələrə bir yeniliklər gətirmiş, respublikamızda yüksək ixtisaslı elmi-pedaqoji kadr hazırlığı, elm və təhsil quruculuğu ilə bağlı təşkilatçılıq işinə böyük əmək sərf etmiş, ana dilində ilk dərslik, monoqrafiya ənənəsini qoyan SSRİ PEA-nın üzvü olmuş ilk azərbaycanlı alim Abasqulu Abaszadədən ata sevgisi və oğul doğmalığı ilə söhbət açırdı. Zahid muəllim, həmçinin zaman-zaman onun muəllimlik peşəsinin sirlərinə yiyələnməsində Abasqulu Abaszadə ilə yanaşı, respublikamızın tanınmış alimləri professor Mehdi Mehdizadənin, Məmmədbəy Əfəndiyevin, Əhməd Seyidovun, Zəki Kazımzadənin, Abdulla Muxtarovun, İbrahim İbrahimovun, Mərdan Muradxanovun, Əhməd Kədəri Zəkizadənin, Yusif Əmənzadənin, Rəşid Məmmədovun və başqalarının da xatirələrini ehtiramla yad edirdi.

Zahid müəllimin xeyir-duasını aldıqdan sonra 2003-cü ilin mart ayında Azərbaycan Təhsil Problemləri İnstitutunda doktoranturaya qəbul oldum. 2007-ci ildə həvəslə başladığım elmi-tədqiqat işini tamamladım. Mövzu ilə bağlı elm adamları ilə görüşdüm, təhsil müəssisələrində oldum, müxtəlif problemlərin həlli yollarını axtardım. Hər yerdə Zahid müəllimin böyük zəhmətinin bəhrəsi olan, müasirliyi özündə qoruyub saxlamağı bacaran, həmişəyaşar elmi əsərləri, bir də Zahid Qaralov məktəbinin çoxsaylı, layiqli davamçıları qarşıma çıxdılar. Qarşıma çıxan bu böyük ustadla bağlı uzun illər qəlbimdə gəzdirdiyim düşüncələrim belə oldu: Zahid müəllim ilk görüşdə səliqə-səhmanlı, nəzakətli-mehriban, üzü gülər, çöhrəsində Peyğəmbər nuru olan bir insan idi... Ona daha da yaxınlaşdıqca onun dünyagörüşlü, alicənab, qürurlu, söhbəti-ürfan sahibi, yeri-göyü sevən, Böyük Yaradana inanan bir adam olduğunu gördüm. İşindən, elmdən danışanda peşəsinin sahibi, nizam-intizamlı, hər yerdən və hər şeydən halı, özü yaratmağı bacaran və yaradanlara, Haqqa üz tutanlara və düz danışanlara arxa və rəhbər-böyük olmağı bacaran, Allah yolunu gözləyən bir insan idi... Ruhuna gəldikdə isə doğulduğu torpaq – Borçalı kimi müqəddəs və ətirli, çiçək kimi zərif, kövrək, hala yanan, deyib-gülməyi bacaran, adilərdən adi, sadələrdən sadə, Allaha sığınan bir adam idi...

Bəzən həyatda müəllimlik peşəsini tam dolğunluğu ilə şərh etmək üçün bütün istədiklərmizi özündə birləşdirə bilən müxtəlif etalonlar axtarırıq. Zahid muəllim müəllimliyin etalonu idi,

Azərbaycanın Xalq şairi Zəlimxan Yaqubun bir şeirində olduğu kimi:

**Dünya mənim idi, mən olmamışdan,**
**Bilirəm dünyaya mən niyə gəldim.**
**Yazıldı alnıma müəllim qisməti,**
**Zamana dərsimi deməyə gəldim.**

Bir sözlə, Zahid müəllim dünyaya niyə gəldiyini bilən adam idi. Yaradıcı adamlara məxsusluqla zamana sözünü deməyi bacaran, dərsini deyən Zahid muəllimin böyük və ağır zəhmətinin bəhrəsi olan çoxsaylı elmi-pedaqoji, siyasi və bədii əsərləri onun arxada qalan illərinin xoş xatirələri olmaqla yanaşı, həm də gələcəyə inamla baxan, dövlətimizə və millətimizə gərəkli olan həmişəyaşar ideyaların daşıyıcısıdır.

Zahid Qaralovun yazdığı "Məktəblinin fizika lüğəti" (Azər Abaszadə ilə birlikdə), "Məktəbdə peşə oriyentasiyası üzrə iş", "Fizikanın tədrisində təlim və tərbiyənin vəhdəti", "IV-VIII siniflərdə əmək təlimi"(N.Quliyev və N.Şışkinlə birlikdə), "Fizka tədrisinin səmərəliliyinin artırılması yolları", "Fizika qanunlarının tədrisi", "Məktəbdə əxlaq tərbiyəsi", "Məktəblilərin tərbiyə nəzəriyəsi və təcrübəsi", "Təhsil sisteminə müasir baxış", onun rəhbərliyi ilə ibtidai siniflər üçün yaradılmış riyaziyyat üzrə tədris kompleksi və digər fundamental əsərləri ona şərəf gətirməklə yanaşı, bu gün də mütəxəssis və tələbələrin stolüstü kitabı olaraq qalmaqdadır. Zahid müəllim 150-dən çox monoqrafiya, dərslik, tədris proqramı, müəllim, valideyn, şagird-tələbə üçün metodiki vəsaitin, 150-dən çox jurnal məqaləsinin, tezislərin, topluların, 500-dən çox qəzet məqaləsinin müəllifi, 80-dən çox namizədlik dissertasiyasının rəhbəri, 15-dən çox isə doktorluq dissertasiyalarına elmi məsləhətçi olmuşdur.

Respublikamızın müstəqillik mübarizəsində Zahid Qaralov əsl ziyalı kimi xalqın önündə oldu. Bu şərəfli mübarizədə o, ilk gündən öz layiqli yerini xalqımızın sevimlisi Ulu öndərin yanında tapdı. Onun Heydər Əliyevə olan böyük inam və sevgisi ilə bağlı ötən əsrin 90-cı illərinin əvvəllərində "Heydər dağına kölgə salmaq olmaz" adlı məqaləsi "İki sahil" və "Səs" qəzetlərində dərc olundu. 7 dekabr 1992-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında akademik Ziya Bünyadovun sədrliyi ilə keçirilən ziyalılar konfransında "Naxçıvan Respublikasının dövlət quruculuğunun və MR Ali Məclisinin sədri Heydər Əlirza oğlu Əliyevin Müdafiəsi Komitəsi" yaradıldı və Zahid Qaralov qurumun sədri seçildi. 1992-ci ilin noyabrda Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı Naxçıvan şəhərinə uçan 5 nəfərlik təşəbbüs qrupunda Zahid Qaralov da var idi." 21 noyabr 1992-ci ildə Yeni Azərbaycan Partiyasının təsis konfransında Zahid müəllim Partiyanın İdarə heyəti və Siyasi Şurasının üzvü seçildi. O, Yeni Azərbaycan Partiyasının yarandığı gündən ömrünün sonunadək Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri oldu.

Məhz 15 iyun 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı dövlətimizi və xalqımızı bütün bəlalardan xilas etdi, yeni bir dövrün, inkişaf və tərəqqinin əsasını qoydu. Zahid müəllim 1995-ci ilin oktyabrında ilk demokratik seçkidə Azərbaycan Respublikası Milli Məclisinə deputat və Yerli özünüidarə daimi komissiyasının sədri seçilməsinə, həmçinin 2000-ci ildə Milli Məclisə keçirilən ikinci seçkidə təkrar deputat seçilməsinə və Regional məsələlər daimi komissiyasına rəhbərlik etməsinə baxmayaraq, bütün dövrlərdə pedaqoji sahəyə xüsusi diqqət yetirmiş, bu sahədə mövcud olan qlobal problemlərə "Tərbiyə"(üç cild), Məhəmməd Nəsirəddin Tusi: elm, saf əxlaq dünyasına açılan qapı (2 cild), "İdeologiya və mənəviyyat", "Əbədiyyata gedən yollar (Heydər Əliyev barədə)", "Heydər Əliyevin elmi irsi" (2 cild), "Heydər Əliyev-Milli ləyaqət ölçüsü" kimi yeni-yeni fundamental əsərləri ilə aydınlıq gətirdi və öz layiqli sözünü dedi.

Zahid müəllimin keçdiyi şərəfli ömür yolu bu gün bütün Azərbaycan cəmiyyəti tərəfindən böyük ehtiram və hörmətlə xatırlanır, layiqincə qiymətləndirilir, əsl vətəndaş nümunəsi kimi göstərilir. Göstərdiyi gərgin və fədakar əməyinə görə Zahid müəllim sovetlər dönəmində Əməkdar müəllim fəxri adına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" ordeni ilə, müstəqil Azərbaycan dövləti tərəfindən isə "Şərəf" və "Şöhrət" ordenləri ilə təltif olunmuşdur.

***Vidadi ORUCOV,***
***pedaqogika üzrə elmlər doktoru***

# Qarabağ Universiteti – xalqımıza Zəfər töhfəsi

## Bu elm və təhsil ocağı Xankəndidən dünyaya açılan mənəvi pəncərədir

**Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2023-cü il tarixili sərəncamı ilə Qarabağ Universitetinin yaradılmasını təkcə həmin bölgədən olan keçmiş məcburi köçkünlər deyil, bütün xalqımız böyük sevinc və qürur hissi ilə qarşıladı. Bu sərəncam yeni dövrün reallıqlarının tələblərinə uyğun yüksək ixtisaslı, müasir dünyagörüşünə malik kadrların hazırlanması ilə yanaşı, Qarabağın ali təhsil ənənələrinin bərpasına və inkişafına da verilən böyük töhfədir.**



Qarşıdan gələn 2024–25-ci tədris ilində ilk dəfə fəaliyyətə başlayacaq Qarabağ Universitetində həyata keçirilən hazırlıq işlərinin vəziyyəti, qarşıya qoyulan hədəflərlə bağlı sözügedən təhsil ocağının rektoru Şahin Bayramovla həmsöhbət olduq:

**– Şahin müəllim, əvvəlcə sizi Qarabağ Universitetinin ilk rektoru təyin edilməyiniz münasibətilə təbrik edirik. Yeni tədris ilinə hazırlıq necə gedir?**

– Təşəkkür edirəm. Qarabağ Zəfərinin baş sərkərdəsi, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Qarabağ Universitetinin yaradılması hər bir Azərbaycan vətəndaşında qürur, fəxarət yaradıb. Qarabağ Universiteti məhz Vətən müharibəsində və onun davamı olaraq lokal antiterror aksiyasında qələbələrimizin xalqımıza daha bir layiqli töhfəsi, suverenliyimizin tam bərpası ilə bağlı tarixi ədalətin önəmli təcəssümüdür. Bu universitet işğaldan azad olunmuş torpaqlarımızda fəaliyyətə başlayacaq ilk ali təhsil müəssisəsi kimi də tariximizə düşür.

Doğma Qarabağımızda əvvəl də ali təhsil ənənəsi olub, əzəli torpağımız olan Xankəndi şəhərində vaxtilə ali məktəb fəaliyyət göstərib. Bu mənada Qarabağ Universitetinin yaradılması bölgədə həmin ənənənin bərpa edilməsinə və təhsil ekosisteminin inkişafına dəstək göstərəcək tarixi bir qərardır. Çox qürurluyuq ki, bu prosesdə iştirak edən insanlar arasında formalaşmaqda olan kollektivimiz də var.

Hazırda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi və birbaşa iştirakı ilə Qarabağ Universitetinin qurulması prosesi sürətlə həyata keçirilir. Yeni tədris ilinə hazırlaşırıq, 2024–25-ci tədris ilində ilk tələbələrimizi qarşılayacağıq. Bununla əlaqədar hazırda universitetin akademik və inzibati heyətinin seçilməsi prosesi həyata keçirilir, abituriyentlər arasında Qarabağ Universitetinin təbliğatı aparılır.

Paralel olaraq, universitetin infrastrukturu qurulur, auditoriya və laboratoriyaların, tələbələrimizin yaşayacağı mənzil tipli yataqxananın, həmçinin əməkdaşlarımız üçün nəzərdə tutulmuş mənzillərin təmiri istiqamətində işlər görülür. Bütün bunlar kompleks tədbirlər şəklində reallaşdırılır.

**– Universitetin akademik heyətinin formalaşdırılması prosesi nə yerdədir və işə qəbul zamanı namizədlərdə hansı keyfiyyətlərə üstünlük verirsiniz?**

– Hazırda müəllimlər müəyyənləşdirilir, dekanlar, kafedra müdirləri seçilir. Yeni universitetin akademik məzmununu formalaşdırırıq. Yeni fəaliyyətə başlayacaq universitetimizdə ilkin olaraq 6 fakültə fəaliyyət göstərəcək ki, bu fakültələrdə 27 ixtisas üzrə tələbə qəbulu həyata keçiriləcək. Bütün ixtisasların tədris proqramını müəyyənləşdiririk, tədris planları işlənib hazırlanır. Buna uyğun olaraq da tədris ediləcək fənlərə müvafiq professor-müəllim heyətinin seçimi aparılır. Bunun üçün Elm və Təhsil Nazirliyinin rəsmi saytı, həmçinin sosial şəbəkələr vasitəsilə elanlar verilir və seçim prosesi tam şəffaf şəkildə həyata keçirilir.

Seçim zamanı namizədlərdə üstünlük verdiyimiz kriteriyalara gəlincə, bunlar, təbii ki, ilk növbədə peşəkarlıqdır. Çünki ölkə başçısı tərəfindən qarşımıza ən müasir bir universitet qurulması tələbi qoyulub. Elə bir ali təhsil müəssisəsi yaratmalıyıq ki, növbəti mərhələdə Azərbaycanın inkişafını öz çiyinlərində daşıya biləcək yüksəkixtisaslı kadrlar hazırlasın.

Qarşımıza, eyni zamanda tədqiqat ağırlıqlı universitet olmaq missiyası qoyulub. Buna görə də məqsədimiz yaxşı təhsil almış, öz sahəsi üzrə peşəkar olan, müasir dünyagörüşlü və müasir gənclərlə işləyə biləcək akademik personal formalaşdırmaqdır. Professor-müəllim heyətindən digər gözləntilərimiz onların innovativ düşüncəyə malik olmaları, ən yeni tədris metodlarından istifadə bacarıqları, müasir tədqiqat alətlərindən yararlana bilmələridir.

**– Yeni ali məktəbin tədqiqat xarakterli fəaliyyəti hansı sahələri əhatə edəcək?**

– Təbii ki, ilk mərhələdə ağırlıq daha çox tədrisin üzərinə düşəcək. Ancaq ümumilikdə universitetimiz tədqiqat xarakterli ali təhsil müəssisəsi olacaq. Bunun mahiyyəti ondan ibarətdir ki, tədris verməklə, kadr hazırlamaqla bərabər elmi-tədqiqatlar da aparılmalıdır. Bu tədqiqatlar nəticəyönümlü olmalı, nəticələr dünyanın aparıcı elmi jurnallarında dərc edilməli, bugünkü cəmiyyətin inkişafına töhfə verməlidir.

Bütün bunlar bizə həm də təhsil verdiyimiz tələbələrimizdə tədqiqat bacarıqları formalaşdırmağa, onların innovativ düşüncə tərzinin inkişafına yardımçı olmağa, data ilə işləyə biləcək gənclər hazırlamağa kömək edəcək. Bu məqsədlə gələcəkdə universitetin nəzdində tədqiqat mərkəzlərinin yaradılması, beynəlxalq səviyyəli elmi konfransların keçirilməsi və digər işlərin görülməsi nəzərdə tutulub.

**– Qarabağ Universiteti ilk addımında yeniliklər meydanına, yaxşı mənada, respublikamızın digər ali təhsil müəssisələrinin ciddi rəqibinə çevrilib. Sizcə, builki abituriyentlərin məhz Qarabağ Universitetinin tələbəsi olmaq arzusu hansı istəkdən və üstünlükdən qaynaqlanır?**

– Əvvəldə qeyd etdiyim kimi, Qarabağ Universitetinin yaradılmasını bütün xalqımız sevinc hissi ilə qarşılayıb. Təbii ki, bu universitetdə oxumaq, Zəfər ünvanlı, "Qarabağ" adlı bir ali təhsil müəssisəsinin tələbəsi olmaq hər bir gənc üçün fəxarətverici olacaq. Tez-tez abituriyentlərlə görüşlər keçirir, onlarla kommunikasiyalar qururuq.

Bizi çox sevindirir ki, həm gənclərin özlərində, həm onların valideynlərində Qarabağ Universitetinə böyük maraq var, universitetimizdə təhsil almaq istəyənlərin sayı çoxdur. Bunun başqa bir neçə səbəbi də var. Əvvəla, bu il bizim universitetimizə qəbul olanlar Qarabağ Universitetinin ilk tələbəsi olmaq kimi fürsət əldə etmiş olacaqlar. Bu həm də o deməkdir ki, həmin gənclərimiz, eyni zamanda, universitetin ilk məzunu olmaq şansını da qazanırlar.

Dövlətimizin Qarabağ Universiteti ilə bağlı ortaya qoyduğu konseptin əsas hissəsi ondan ibarətdir ki, bu ali təhsil müəssisəsində təhsil alacaq tələbələr üçün çox gözəl imkanlar formalaşdırılır. İlk növbədə, universitetə qəbulun yalnız dövlət sifarişi əsasında həyata keçiriləcəyini qeyd etmək istəyirəm. Yəni təhsil ödənişsiz olacaq və bütün tələbələrimiz dövlət vəsaiti hesabına təhsil alacaqlar. Bu həm də onların təqaüd alması deməkdir.

Eyni zamanda tələbələrə universitetə qəbul olarkən topladıqları bala uyğun olaraq əlavə təqaüdlərin verilməsi nəzərdə tutulur. Hazırda əlavə təqaüdlərin məzmununun hazırlanması üzərində iş gedir. Bundan başqa, universitetimizdə çoxsaylı adlı təqaüdlərin təsis edilməsi də gözlənilir.

**– Düşmən münaqişə dövründə Qarabağı xarabalığa, tənəzzül meydanına çevirib. İnfrastruktur tamamilə yenidən qurulur, çətinliklər xeyli davam edəcək.**

– Universitetimizi seçən gənclərimiz əmin olsunlar ki, onları ən müasir ali təhsil müəssisəsində məzmunlu bir tələbə həyatı gözləyir. Dediyim kimi, təhsli ödənişsizdir, onlar ən yeni infrastruktura malik universitetdə təhsil alacaqlar, hər biri mənzil tipli yataqxanalarda dövlətimiz tərəfindən ödənişsiz əsaslarla yaşayış yeri ilə təmin ediləcəklər. Üstəlik, bu il Qarabağ Universitetinin tələbəsi adını qazanan hər bir kəsə ən müasir kompyuter avadanlığı – "notebook"lar hədiyyə olunacaq.

Tələbələrimizi akademik həyatdan başqa, çox maraqlı sosial həyat da gözləyir. Məqsədimiz odur ki, onlar universiteti öz doğma evləri hesab etsinlər, auditoriyadankənar həyatları rəngarəng olsun. Bunun üçün onlara layihələrə qoşulmaq, könüllülük fəaliyyəti ilə məşğul olmaq, müxtəlif tələbə qrupları formalaşdırmaq və öz yaş dövrünün maraqları çərçivəsində digər səmərəli işlər görmək imkanı yaradılacaq.

Bir şeyi də qeyd etmək istəyirəm ki, universitetimizdə beynəlxalq dil mərkəzi fəaliyyət göstərir. Bu mərkəzin yaradılmasının məqsədi bütün tələbələrimizdə yüksək səviyyəli xarici dil bacarıqlarının formalaşdırılmasına nail olmaqdır. Yeri gəlmişkən, personalın seçimi zamanı da bu amil xüsusi diqqətdə saxlanılır. Bu da bizə gələcəkdə ingilis dilində tədris prosesi həyata keçirmək, dünyanın aparıcı ali təhsil müəssisələrində dərs deyən soydaşlarımızın, azərbaycanəsilli, həmçinin xarici alimlərin, professorların mühazirələr oxumaq üçün Qarabağ Universitetinə cəlb edilməsi imkanı verəcək.

Tələbələrimiz də təhsil müddətində çoxsaylı xarici universitetlərlə əməkdaşlıq, beynəlxalq tədbirlərdə, forumlarda iştirak şansları qazanacaqlar. Bütün hallarda çalışdığımız odur ki, quracağımız müasir universitet doğma Qarabağımızın, doğma Azərbaycanımızın elə Qarabağdan dünyaya açılan pəncərəsi, yayılan səsi olsun!

**– İlk tədris ilindən Qarabağ Universitetində SABAH qruplarnın da açılması sevindiricidir.**

– Ölkəmizdə artıq 10 ildir fəaliyyət göstərən SABAH qrupları Elm və Təhsil Nazirliyinin ən uğurlu layihələrindən biridir, ali təhsilimiz üçün əlavə bir dəyər deməkdir. Bəli, abreviaturasının açması "savadlı, bacarıqlı, hazırlıqlı" olan SABAH qrupları bu il ilk dəfə fəaliyyətə başlayacaq universitetimizdə də yaradılacaq və buna görə nazirliyimizin rəhbərliyinə təşəkkür etmək istəyirəm.

Bildiyiniz kimi, sözügedən qruplarda təhsil ikinci kursdan etibarən həyata keçirilir. Odur ki, hazırda respublikamızın müxtəlif ali təhsil müəssisələrinin birinci kursunu bitirmiş tələbələrinin müaricətlərinə baxılır və seçim aparılır. Qəbul prosesindən uğurla keçən tələbələr müvafiq olaraq ixtisasları üzrə təhsillərini Qarabağ Universitetinin SABAH qruplarında davam etdirəcəklər.

**– Qarabağ Universitetinin yaxın və uzaq as hədəfləri necə müəyyənləşdirilir?**

– Yolun tam başlanığıcındayıq, amma qarşımızda çox ciddi, strateji hədəflər qoyulub. Qeyd etdiyim kimi, biz ən müasir bir universitet qurulucuğuna başlamışıq və müasir universitetin məzmununda nə olmalıdırsa, hamısı Qarabağ Universitetində də olacaq. Hazırda Azərbaycan reallıqlarını nəzərə almaqla və öz ehtiyaclarımıza uyğunlaşdırmaqla dünyada mövcud olan ən yeni ali təhsil modellərindən faydalanaraq fərqli bir universitet qurulması prosesi həyata keçirilir.

Arzumuz ondan ibarətdir ki, yeni dövrün gənclərini yeni dövrün şərtlərinə uyğun hazırlaya bilək. Məzunlarımız həm yüksək ixtisaslı kadrlar kimi yetişsinlər, həm də müasir dünyagörüşünə malik, davamlı inkişaf təfəkkürlü insanlar kimi, öz dövlətinə, Vətəninə bağlı vətəndaşlar kimi formalaşsınlar. Bu mənada qarşımızda kifayət qədər iddialı hədəflər var.

Dövlətimizin xüsusi diqqəti və qayğısı sayəsində, cəmiyyətimizin ciddi dəstəyindən faydalanmaqla və akademik, inzibati heyətimizin bütün səylərini səfərbər etməklə ali təhsilimizin ümumi mənzərəsinə yeni dəyər qatacaq, dünya səviyyəli universitetə çevrilmək hədəfinə çatacağımıza inanıram.

**– Maraqlı müsahibə üçün təşəkkür edirik.**

***Mahir RƏSULOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**Xankəndi**

# "Mənim də silahım öz qələmimdir"

**Gəncədə orta məktəbin 6-cı sinfində oxuyurdum. Atam – Xalq artisti Məhəmməd Burcəliyev tez-tez əlimdən tutub məni "Alimlər evi"nə aparırdı. Orada "İlham" ədəbi birliyi fəaliyyət göstərirdi. Atam da bu birliyin görüşlərində iştirak edər, müzakirələrə qatılardı. Onun yaxın dostu Qərib Mehdi istedadlı gəncləri başına toplayıb istiqamətləndirər, şerlərinə düzəlişlər edərdi.**



Bir gün mən özümdə cəsarət tapıb əlimi qaldırdım. Qərib Mehdi dərhal dilləndi:

– Nə istəyirsən, Anar bala?

– Qərib əmi, mən də Gəncə teatrının tamaşası haqqında yazı yazmışam. Olar, oxuyum, qulaq asasınız?

– Yaxşı, oxu, görək, sən nə yazmısan, – dedi.

Yazımı oxudum. Məni maraqla dinləyib məsləhətlərini verdi. Beləcə ədəbi birliklə əməkdaşlığım genişləndi. Mən də ustad Qərib Mehdi bulağından su içib, "İlham"ın yetirmələrindən sayıldım.

O, 50-ci illərin sonunda ədəbiyyata qədəm qoyub. "İşıq"la, "Qərib, hey"lə, "Rast"la etiraf edilib və böyük oxucu kütləsini ətrafında toplaya bilib. Sonra da 60-cı illərin ədəbi mübarizəsinə qoşulub. O illərdən söz düşərkən Qərib Mehdi dalğın baxışlarla xatirələrini vərəqləyərək deyir: "SSRİ-də, o cümlədən Azərbaycanda "60-cılar" meydana gəlməsilə bir yenilik mehinə, ədəbi küləyə çevrildi. Və daha sonra bu proses qarşısıalınmaz oldu".

Qərib Mehdi bir gün də olsun, doğma Gəncəmizdən ayrılmayıb. Hər zaman burada Xan çinarların kölgəsində yazıb-yaradıb, ruh dincliyi tapıb. Bir gün ona sual verdim ki, ustad, nə əcəb Bakı sizi özünə cəlb etməyib, yaradıcılığınızı orada davam etdirmək istəməmisiniz? Güldü və dedi: "Məndə heç vaxt paytaxt cazibəsi olmayıb. Yazılarım diqqət çəkəndən sonra xeyirxahlarım məni də müxtəlif ünvanlara – "Gənclik" nəşriyyatına, televiziyaya və "Azərbaycan" jurnalına dəvət ediblər. Hətta bir dəfə gedişim qatara bilet almağa qədər davam edib. Son anda mərhum yazıçımız Altay Məmmədov məni bu fikirdən daşındırıb. Biz Gəncəsiz qala bilmirik, bala".

Bir növ əyalətdə yaşasa da, orijinal povest, hekayə və esseləri ilə daim seçilən ustad Qərib Mehdi heç zaman şöhrətə aldanaraq, büdrəməyib. Əksinə, yeni, aktual fikir və düşüncələri ilə söz sənətinə müstəsna xidmətlər göstərib. Belə olmasaydı, "İşıq", "Yaralı mərmər", "Ucalan dağlar", "Rast", "Təmiz hava", "Səndən sonra ", "Çinar günü", "Müsabiqə", "Qəhqəhə", "Xatırlanmaq xoşbəxtliyi", "Kentavr lətifələri", "Hamını oxumağa çağıran adam" və başqa adda 50-ə yaxın maraqlı kitabları bu günə kimi gündəmdə olmazdı.

Onun özünəməxsus bədii fikirləri ilə oxucuların sevgisini qazanan, ədəbi mühitdə geniş rezonans doğuran onlarla əsəri xarici dillərə də tərcümə olunub. Tənqidçi Gülrux Əlibəyli yazır: "Bədii etirafın ən kamil nümunəsi Qərib Mehdinin "Məni çağıran səs" povestidir. Azərbaycan ədəbiyyatında ana haqqında yüzlərlə gözəl, kamil povest, poema və romanlar yaranmışdır. Bu, ölməz və ümumbəşəri mövzudur. Burada oxucunu təəccübləndirmək də sanki qeyri-mümkündür. Bununla belə, Qərib Mehdi təəccübləndirir də, heyrətləndirir də". Və ya tənqidçi Rəhim Əliyev ona üzünü tutub yazır: "Sizdən xahiş edirəm, qəzeti uşaqlara tapşırıb var qüvvənizlə işləyin, hər saatınızın qədrini bilin. Cəsarətlə Gəncənin iç dünyasını açıb tökün. Bunu siz etməsəniz, bəlkə, 100 il də keçsə heç kəsə nəsib olmayacaq".

Qərib Mehdi heç zaman həqiqətdən vaz keçmədi, bəziləri kimi qələm altında yatıb köləlik taxtında oturmadı. Buna görə də onun bütün toxunduğu mövzuları öz orjinallığını qorumaqla, düzü-düz, əyrini-əyri kimi göstərə bildi. Qələminin məhsulu olan "Müsahibələr və müsahiblər", "Əlim çatan, ünüm yetən sənətçilər", "Bulanma, könül çayım", "Göyçəgülü", "Səbuhinin hekayətləri", "Bu qızı eşit, ilahi", "Gördüyünü çağıran aşığın nağılı", "Güldün, ağlım apardın", "Gül əvəzinə söz", "Sözün vaxtı-vaxtın sözü", "Mənsiz gün olmaz günün", "Küləklər ağzında şam işığı", "Nizami Aydın şəhidliyi" kimi kitabları dövrünün aktual problemlərini açıqlaması ilə oxucu qəlbini fəth edib.

Qərib Mehdi hərdən söhbətlərində deyir: "İnsan sevəndə, yaradanda, kiməsə yaxşılıq edəndə yaşayır. Qələmim nadinc uşaq kimi dinc durmur. Elə bir ucdan yazıram. Döyüşə girən cəngavərin silahları cəsarətdən, atdan və qılıncdan ibarətdir. Mənim də silahım qələmim, mövzum və üslubumdur".

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar onun əsərlərindən söz düşərkən maraqlı bir faktı önə çəkərək deyir: "Siz əsərlərinizlə Allah, cəmiyyət və dünya qarşısındakı məsuliyyət hissinin dərindən, əxlaqlı şəkildə qavranmasına yardımçı olmaq niyyətinizdə həmişə təmənnasız olmusunuz. Bir yazar olaraq, bir insan olaraq, sənətdaşlarınıza, xüsusən ədəbi gəncliyə davamlı şəkildə diqqət və qayğı göstərmisiniz. Bu xidmətləriniz heç zaman unudulmayacaq".

Orta məktəbi bitirən kimi Gəncəyə gəlməsini xatırlayan şair, Əməkdar mədəniyyət işçisi Qəşəm Nəcəfzadə ilk dəfə kənddən kənara çıxdığını və şəhəri tanımadığını söyləyir. "Bu boyda şəhərdə bir nəfər də tanışım yox idi. Bircə ağaclar, küləklər, yağışlar tanış idi. Onları kənddə görmüşdüm, elə bil mənimlə şəhərə gəlmişdilər. Gəncə Dövlət Universitetinə (Köhnə KDPİ) dil-ədəbiyyat fakültəsinə qəbul olundum. İki aydan sonra Qərib Mehdi ilə tanış oldum və ona "aldanıb", qaldım Gəncədə. Yaxşı ki, qaldım. Ona kimi canlı yazıçı görməmişdim, kitab hədiyyə almamışdım, mənə avtoqraf yazmamışdılar. Hamısını Qərib Mehdi ilə tanıdım".

Maraqlı burasıdır ki, Qərib Mehdi dramaturgiyada qələmini cəmi bircə dəfə sınayıb. Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində onun qələmə aldığı "Oxşarlar" pyesi maraqla izlənilib. Əsərin Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində ilk tamaşası 23 fevral 1989-cu ilə təsadüf edir. Pyes ekoloji problemlərə həsr olunub, satirik çalarda işlənib. Tamaşanın quruluşçu rejisoru olan atam Məhəmməd Burcəliyev dəyərli əsəri dramatik-yumoristik planda qurmağa müvəffəq ola bilib. Əslində, pyes komediya deyil. Ancaq burada yumor hissi çox güclüdür. Hətta əsərin ciddi məsələlərdən bəhs olunan səhnələrində belə, yumor dildən düşmür.

Əməkdar jurnalist, Məmməd Araz və Həsən bəy Zərdabi mükafatçısı, sevilən yazıçı-publisist Qərib Mehdi bir sıra digər sənət ödüllərinə də layiq görülüb. Yuxarıda onun vaxtilə atamla dost olduğunu vurğulamışdım. Bu günsə mən ömrünün 88-ci baharını yaşayan ustadla dostluğumla qürur duyuram.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas***

**Teatrsevərlər hər zaman bu sənət ocağının səhnəsində yaddaqalan tamaşalar izləyib, maraqlı obrazlar görüblər. Burada çalışan yaradıcı heyət üçün hər mövsümün əvvəli məsuliyyət, sonu isə bir hesabatdır. Teatr Cəlil Məmmədquluzadənin pyesi əsasında mərhum Xalq artisti Azər Paşa Nemətovun quruluş verdiyi "Ölülər" tamaşası ilə 151-ci mövsümü yekunlaşdırdı. Bəs bu mövsüm, ümumilikdə, necə keçdi?**

# Milli Dram Teatrı finişə "Ölülər"lə çatdı



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı mövsümün əlamətdar hadisələrlə zəngin olduğunu bildirdi. Həmişə yeniliklərə açıq olan, tamaşaçı sevgisini əsas götürən və peşəkar yanaşmanı təlqin edən sənət ocağının ötən mövsümdə də tamaşaçılara rəngarəng repertuar təqdim etdiyini, qastrollarda uğurla çıxış etdiyini söylədi:

– Ötən mövsümdə teatrda mövzusu çağdaş günümüzlə səsləşən əsərlər səhnəyə qoyuldu, 5 yeni tamaşanın premyerası oldu. Bundan əlavə, teatr beynəlxalq festivallara, habelə forum və konfranslara dəvət aldı. IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda ölkəmizi təmsil etdi. Forum çərçivəsində teatr sənətinə həsr olunan xüsusi paneldə Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov Rusiya, Belarus və Serbiya milli teatrlarının rəhbərləri ilə bərabər çıxışlar etdi. Həmçinin Rusiyanın Aleksandrinski Teatrı (Sankt-Peterburq) və Milli Dram Teatrı arasında əməkdaşlıq memorandumu imzalandı. Bundan başqa, Milli Dram Teatrı Qazaxıstanda keçirilən MDB, Baltikyanı ölkələr və Gürcüstan gənclərinin 5-ci Teatr Forumunda ölkəmizi təmsil etdi. Ötən günlərdə Suzdal şəhərində reallaşan 2-ci Rusiya Milli Teatrları Konqresi və Rusiya Milli Teatrlarının 1-ci Yay Festivalına da teatrımız fəxri qonaq qismində dəvət almışdı. Teatr rəhbərliyi bütün beynəlxalq tədbirlərdə iştiraka sənət ocağı üçün əlverişli platforma kimi yanaşır. Beynəlxalq tədbirlərdə iştirakımız sənət və təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyət daşıyır.

**– Zəhmət olmasa, ötən mövsümün yeni tamaşaları barədə də məlumat verin.**

– Yola saldığımız mövsümdə teatrın yaradıcı heyəti qırğız yazıçısı Çingiz Aytmatovun "Əsrə bərabər gün", Xalq yazıçısı Anarın "Dantenin yubileyi", yazıçı-dramaturq Şıxəli Qurbanovun "Sənsiz", Məmmədhüseyn Təhmasibin "Bir qalanın sirri" və mənim "Şükriyyə" pyesimə səhnə həyatı verdi. Bu 5 səhnə əsərinin təqdimatı, rejissor yozumu, səhnə tərtibatı və aktyor oyunu maraqla qarşılandı, ən əsası, tamaşaçı məmnunluğuna nail olduq. Belə layihələrimizə yeni mövsümdə də davam edəcəyik.

Hazırda teatrda yeni tamaşanın məşqlərinə başlanıldığını deyən C.Zeynallı söylədi ki, Hüseyn Cavidin "İblis" əsəri əsasında hazırlanan "İbis və..." adlı yeni səhnə əsərinin janrı dekonstruktiv-metadramdır. Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin quruluş verdiyi tamaşanın premyerası yeni mövsümün əvvəllərinə nəzərdə tutulur.

***Ceyhun ALIŞLI***

# İtaliya səması altında "Məhəbbət əfsanəsi"

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin dəstəyi ilə İtaliyanın Genuya şəhərində keçirilən "Nervi Rozza Music Ballet Festival"ında iştirak edən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası görkəmli bəstəkar, Xalq artisti Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletini açıq səma altında, möhtəşəm səhnədə nümayiş etdirib.**



Nazirlikdən bildirilib ki, Azərbaycan mədəniyyəti və klassik balet tarixində böyük mədəni hadisəni seyr edənlər arasında Genuya Opera Teatrının baş direktoru Kladuio Orazi, bədii rəhbəri Pierancelo Konte, Genuya şəhərinin meri Karlo Bucci, regionun mədəniyyət kuratoru Cesika Nikkolini və digər mötəbər qonaqlar yer alıblar.

Qeyd edək ki, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının İtaliyada növbəti çıxışı avqust ayında Arena de Veronanın səhnəsində keçiriləcək.

***XQ***



# 62 min şagirdin 8 ən biliklisi

**Artıq 7-ci ildir ki, Elm və Təhsil Nazirliyi "Kapital Bank"ın dəstəyi ilə Respublika Fənn Olimpiadaları keçirir.**

Ötən tədris ili üzrə keçirilən olimpiada qaliblərinin mükafatlandırma mərasimi yaddaqalan olub. Respublika Fənn olimpiadalarında ən yüksək nəticə göstərmiş 8 qızıl medalçıya, eləcə də bütün qaliblərə diplom və mükafatlar təqdim edilib.

Xatırladaq ki, tədris ili üzrə, ümumilikdə, 62 mindən çox şagird olimpiadada iştirak üçün qeydiyyatdan keçib. Yarışma 8–11-ci sinif şagirdləri arasında, 8 fənn üzrə və 143 mərkəzdə təşkil edilib. Şagirdlər biliklərini Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, fizika, kimya, biologiya, informatika, tarix və coğrafiya fənləri üzrə 3 turda sınayıblar. 10 min 997 şagird həlledici mərhələdə iştirak etmək hüququ qazanıb. Finala keçən 1000-ə yaxın şagirddən 491 nəfəri qalib olub. Onlardan 244 nəfəri bürünc, 163 nəfəri gümüş, 84 nəfəri isə qızıl medal qazanıb.

***XQ***

# "Köç yolu" Xan yaylağından keçdi...

***Göygöl rayonunun Xan Yaylağında, III Milli Yaylaq Festivalı çərçivəsində "Gəncəbasarda köç yolu və elat mədəniyyəti: əcdadlarımızın izi ilə" adlı etnoturizm qurultayı keçirildi.***

Regionda təşkil olunan etnoturizmlə bağlı ilk tədbir Dövlət Turizm Agentliyinin Gəncə Regional Turizm İdarəsi və "Cavadxan Mədəniyyət Fondu"nun dəstəyi ilə baş tutdu. Burada, Gəncəbasarda elat mədəniyyətinin tarixi, müasir vəziyyəti, köç yolu və yarımköçəri həyat tərzi və başqa mövzularla bağlı müzakirələr aparıldı. Tədbirin əsas məqsədi xalqımıza xas olan milli-mənəvi dəyərləri qoruyub saxlamaq, təbliğ etməkdən ibarətdir. Qurultayın sonunda Gəncəbasarda köç yolu mədəniyyətinin qorunması və gələcək nəsillərə çatdırılmasını təmin etmək üçün bu cür tədbirlərin elmi-praktiki formatda mütəmadi olaraq digər rayonlarda da keçirilməsi qərara alınmışdır.

Qeyd etmək lazımdır ki, Gəncəbasarda köç yolunun əsas ana xəttini yarımköçəri mədəniyyət təşkil edir. Bu qədim məskənin dağlıq hissəsinin sakinləri ildə iki dəfə yaylaq-qışlaq arasında mövsümi köç edərək ilin 4 ayını Kiçik Qafqaz dağlarının



ətəklərində (1800–2900 m), 8 ayını isə Ceyrançöl qışlaqlarında keçirirlər. Minillərdən süzülüb gələn köçmə heyvandarlıq mədəniyyəti Gəncəbasarın bütün mədəni tarixini, memarlıq irsini, folklorunu, inanc sistemini, ticarət əlaqələrini və s. formalaşdırıb inkişaf etdirmişdir.

***Fidan SALMANOVA***
***XQ***

# Hər kitab bir dünyadır

## Elçinin pyesləri türkcədə

***Xalq yazıçısı Elçinin dramaturgiyası Türkiyədə də geniş yayılıb və kitab halında nəşr edilib. Onun pyesləri qardaş ölkənin Ankara, Ərzurum, Kayseri və digər şəhərlərinin dövlət teatrlarında, eləcə də İstanbul Böyük Bələdiyyə Teatrında tamaşaya qoyulub, müxtəlif mükafatlara layiq görülüb.***

Bu günlərdə isə qardaş ölkənin "Mi Yayınları" ədibin pyeslərindən ibarət "Teleskop. Teatro oyunları" kitabını çap edib.




Nəşriyyat müəllifi təqdim edərək yazır: "Dünyada tanınmış yazar Elçin günümüzdə deyil, gələcəkdə də oxunacaq və əsərlərindən dərslər alınacaq bir yazardır".

Kitaba Elçinin "Teleskop", "Mənim sevimli dəlim", "Şekspir" və "Cəhənnəm sakinləri" pyesləri daxil edilib. Əsərləri türkcəyə tanınmış yazıçı Orxan Araz uyğunlaşdırıb.

## Magellanın dünya səyahəti

***Alman tarixçisi, yazıçı və rəssamı Herbert Votenin "Magellanın dövri-aləm səyahəti" adlı romanı Azərbaycan dilində çap olunub.***

Son dərəcə maraqlı əsəri almancadan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşı Munisə İsmayılova tərcümə edib.

Əsər portuqal mənşəli dəniz səyyahı Ferraro Maqalyaeşin ağır və məşəqqətli dünya səyahətindən bəhs edir. İspaniyaya mühacirət edən səyyah uzun çətinliklərdən sonra Fernando Magellan adı altında yeni səhifə açır. Bu gün dünyada ilk dəniz səyahəti edən Magellanı tanımayan yoxdur.

Kitabın redaktoru Nizami Muzeyinin Məktəblilər və ictimaiyyətlə iş şöbəsinin




elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Təbəssüm Muxtarovadır.

## "Dəniz kənarında"

***İngilis dilində yazan ərəb mənşəli tanzaniyalı yazıçı, 2021-ci ilin Beynəlxalq Nobel mükafatçısı Abdulrəzak Qurnanın nəşr olunan romanı Azərbaycan dilində belə adlanır.***

Yeni əsrin əvvəlində yazılmış bu əsər Afrikada və Qərb ölkələrində böyük maraqla qarşılanıb. Müəllif imperialist ölkələrdə təhsil alan şəxslərin fərdi dünyagörüşü ilə Afrikanın yerli adətlərinin, ənənələrinin




qarşılaşmasının doğurduğu ziddiyyətləri, paradoksları təsvir edir. Romanda İngiltərəyə qaçmış Saleh Ömər adlı gəncin "Qurani-Kərim"dən duyduğu milli-dini bağlılıq hissləri ilə Qərb təhsilindən əxz etdiyi dünyəvi bilgilər arasında çarpışması, çabalaması oxucuların diqqətinə çatdırılır. Köçkün kimi ayaq basdığı ölkədə ingilis dilini bildiyini gizlədərək gözəgörünməz olmaq qərarına gəlir. Bir növ passiv müqavimət nümayiş etdirmək istəyir. Lakin vaxt keçdikcə ətrafdakı insanlara özü haqqında danışmağa başlayır.

Abdulrəzak Qurna özü də qaçqın, miqrant olduğu üçün obrazların daxili dünyasını, yaşantılarını bütün incəlikləri ilə, dolğun təsvir edib.

***Ə.DOSTƏLİ***
***XQ***

Beynəlxalq həyat

# Modinin Rusiyaya səfəri ABŞ-ni niyə narahat edir?

**Hindistanın baş naziri Narendra Modinin Rusiyaya səfəri bir daha ABŞ-ın dünyada nüfuzunun sürətlə azaldığını göstərir. Bu barədə hindistanlı ekspert S. L. Kantan Çinin "Global times" nəşrində yayılmış məqaləsində bildirib. Ekspert vurğulayıb ki, Vaşinqton uzun illərdən bəri, "Parçala və hökm sür" strategiyasından istifadə edir. ABŞ daha güclü və zəngin olduğu dövrlərdə bu yanaşma nəticə də verib: "Lakin bu güc sürətlə əvvəlki üstünlüyünü itirir. Bunu son vaxtlar baş verən bir sıra geosiyasi hadisələr, o cümlədən Modinin son 5 ildə ilk dəfə Rusiyaya səfəri sübut edir".**



S, Kantan əlavə edib ki, Ukraynada münaqişənin kəskinləşməsindən sonra Vaşinqton Moskva ilə Yeni Dehli arasında münasibətlərin pisləşməsinə ümid edirdi. Amma Hindistan Ukraynaya qarşı neytral mövqe tutdu və Modi hətta İsveçrədəki "sülh sammiti"ndə iştirakdan imtina etdi. Beləliklə, Ağ evin ümidləri doğrulmadı. Əksinə, Rusiya ilə Hindistan arasında ticarət və diplomatik əlaqələr gücləndi.

Hazırda Moskva və Hindistanı, əsasən, ikitərəfli iqtisadi əlaqələr maraqlandırır. Bu iki ölkə arasında ticarət dövriyyəsinin həcmi hər il artır. Məsələn, 2024-cü ilin birinci rübündə bu göstərici rekord həddə–17,5 milyard dollara çatıb. 2023-cü ildə isə ticarət dövriyyəsi 2022-ci illə müqayisədə 1,8 dəfə artaraq 65 milyard dollar təşkil edib. Maraqlıdır ki, Rusiya və Hindistan qarşılıqlı ticarətdə dollar və avrodan əsaslı şəkildə uzaqlaşır. ABŞ dollarının Amerika imperiyasının gücünün çox hissəsini təşkil etdiyini nəzərə alsaq bu itki Vaşinqtonu ciddi narahat edir. Qarşılıqlı ticarətdə güclü disbalans isə Rusiyanın xeyrinədir. İndiki ikitərəfli görüşdə də əsas diqqət ticarət kəsirinin aradan qaldırılmasına yönəldilib.

Xatırladaq ki, Rusiyanın Hindistana əsas ixracatı ənənəvi silah satışı olub. Yeni Dehli müxtəlif müasir sursat və silahların, o cümlədən 5-ci nəsil qırıcıların alınmasında, onun birgə və ya lisenziyalı istehsalında maraqlıdır. ABŞ və Aİ-dən fərqli olaraq, Moskva bu sahədə Hindistana kömək edə bilər.

Hindistanın baş naziri Modi Putinlə uzunmüddətli neft sazişini də müzakirə edib. Bu barədə "Economic Times" qəzeti yazıb: "Modinin başçılıq etdiyi Hindistan nümayəndə heyəti Moskvaya səfəri zamanı Rusiyadan Hindistana neft tədarükü ilə bağlı uzunmüddətli sazişi müzakirə edib. Nəşrin məlumatına görə, tərəflər Rusiyadan Hindistana güzəştli qiymətlərlə neftin müntəzəm və sabit tədarükünü təmin edəcək sazişin bağlanmasının zəruriliyini bildiriblər. Göründüyü kimi, Hindistan hətta Vaşinqtonun təzyiqi altında da Rusiyadan neft almaqdan imtina etməyəcək.

Tərəflər arasında müzakirə obyektlərindən biri də Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizidir. Layihə hələ 1999-cu ildə Rusiya, İran və Hindistan tərəfindən hazırlanıb. Həmin il bu üç dövlətin nəqliyyat şirkətləri Rusiya – Xəzər dənizi – İran – Hindistan – Şri-Lanka beynəlxalq nəqliyyat dəhlizi ilə konteynerlərin ixrac-idxal daşınmasına dair baş saziş imzalayıblar. Rusiya onu 2002-ci ildə ratifikasiya edib. Layihənin əsas məqsədi Rusiya ilə Hindistan arasında yüklərin daşınma müddətini azaltmaq, eləcə də Misirin Süveyş kanalına daha qısa və daha rahat olan alternativ marşrutu hazırlamaq olub. Şimal–Cənub nəqliyyat dəhlizinin digər marşrutlardan (xüsusən də Süveyş kanalı vasitəsilə dəniz yolu üzərindən) əsas üstünlükləri daşıma məsafəsinin yarıya qədər və ya daha çox azaldılması və konteynerlərin daşınması zamanı maya dəyərinin aşağı salınmasıdır.

Marşrut Sankt-Peterburqdan Hindistanın Mumbay limanına (Bombey) qədərdir və dəmir yolu, dəniz və çay nəqliyyatının fəaliyyətini təmin edir. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi yüklərin daşınması üçün bir neçə marşrutdan istifadəni nəzərdə tutur. Transxəzər - Rusiyanın Həştərxan, Olya, Mahaçqala limanları vasitəsilə; Şərq– İran dəmir yolu şəbəkəsinə çıxışla Qazaxıstan, Özbəkistan və Türkmənistan vasitəsilə birbaşa dəmir yolu əlaqəsi; Eləcə də Qərb–Həştərxan – Mahaçqala – Samur, sonra Azərbaycan vasitəsilə Astara stansiyasına qədər.

Sonuncu marşrutun işləməsi üçün İranda Rəşt–Astara dəmir yolu hissəsi tamamlanmalıdır. Bu dəmir yolunun (162 kilometr) 2027-ci ilin sonu, 2028-ci ilin əvvəlində istifadəyə verilməsi nəzərdə tutulub. Dəmir yolunun bu hissəsi tamamlandıqdan sonra Rusiyadan İranın cənub limanlarına gedən dəmir yolu dəhlizi formalaşacaq ki, bu da Rusiya yüklərinin Fars körfəzinə birbaşa çıxışını təmin edəcək. Onun işə salınması nəticəsində, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb dəhlizi (Azərbaycandan keçməklə) boyunca tranzitin həcmi 30 milyon tona qədər artırıla bilər.

2030-cu ilə qədər ümumi yük daşımaları bugünkü 15 milyon tondan 41–45 milyon tona qədər artırılması nəzərdə tutulub. Aydındır ki, qazanan tərəflərdən biri də Azərbaycan olacaq. 2005-ci ildən etibarən layihənin önəmli parçasına çevrilən Azərbaycan, son illərdə üzərinə götürdüyü bütün vəzifələri icra edib. İran sərhədinə qədər dəmir yolu infrastrukturunun yenilənməsi təmin edilib. Bunlar ölkəmizin nəqliyyat infrastrukturunun inkişaf etdiyini göstərir. İnfrastrukturun inkişaf etməsi, Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinə inteqrasiyası isə Azərbaycan üzərindən daşınan yüklərin həcminə təsir göstərir. Beynəlxalq yükdaşımalardan əldə etdiyi valyutanın həcmini artırır. Beləliklə, coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verir.

Bu layihə təkcə Azərbaycan, Rusiya, Hindistan və İranın deyil, eləcə də ixrac-idxal əməliyyatlarını həyata keçirərək ticarət dövriyyəsini artırmaq istəyən digər region dövlətlərinin də inkişafında əhəmiyyətli rol oynayacaq. Böyük iqtisadi səmərə gətirməklə yanaşı, regionun daxili sabitliyini təmin edəcək.

S.L. Kantan məqaləsinin sonunda qeyd edib: "Amerika imperiyası artıq aktuallığını itirib. ABŞ-ın seçimi var: ya bu yeni və dinc çoxqütblü dünyaya qoşulun, ya da qəzəbli və təcrid olunmuş hegemona çevrilin".

***P.ƏFƏNDİYEV***
***XQ***

# Çin NATO-nu qlobal sülhə təhlükə sayır



**"Şimali Atlantika Alyansı" – NATO qlobal sülh və sabitlik üçün real təhlükə mənbəyidir. Bunu Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Lin Cyan bildirib.**

Onun sözlərinə görə, "Soyuq müharibə"nin məhsulu və dünyanın ən böyük hərbi ittifaqı özünü regional müdafiə təşkilatı adlandırsa da, daim səlahiyyətlərini genişləndirir, müdafiə sahəsindən kənara çıxaraq dünyanın müxtəlif ölkələrində qarşıdurmalar yaradır. Lin Cyan qeyd edib ki, bu, NATO-da Soyuq müharibə təfəkkürünün və ideoloji ön mühakimələrin möhkəmləndiyini göstərir: "Bu isə qlobal sülh və sabitliyi təhdid edən real riskdir".

Çin diplomatı alyansı Asiya–Sakit okean regionunda gərginliyi artırmamağa və blok qarşıdurmasından xilas olmağa çağırıb.

Xatırladaq ki, iyulun 1-də NATO-nun baş katibi Yens Stoltenberq Çini son 80 ildəki fəaliyyəti ilə Avropada ən böyük münaqişəni törətməkdə ittiham edib. Onun sözlərinə görə, Çin tərəfi Moskvaya raket və pilotsuz uçan aparatların istehsalı üçün ən müasir texnologiyalar və elektronik avadanlıqlar verib.

Buna cavab olaraq Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Ning bildirib ki, NATO Avropada qarışıqlıq yaradıb və Ukraynada müharibənin genişlənməsinə səbəb olub. O, daha sonra vurğulayıb ki, alyans fəaliyyəti ilə Asiya–Sakit okean regionuna zərər vurur və bunu dayandırmalıdır.

**PÜNHAN**
***XQ***

Maraq dünyamız

# "Xiaomi" reklamları 1 düymə ilə söndürür

**"Xiaomi" istifadəçilərə bir düymə ilə smartfonlarında bütün reklamları söndürməyə imkan verəcək.**

Bu barədə "SmartPrix" portalı məlumat yayıb. "Xiaomi" şirkəti "HyperOS" mikroproqramında istifadəçilərə xüsusi keçiddən istifadə edərək bütün reklamları söndürməyə imkan verəcək yeni funksiyanı sınaqdan keçirməyə başlayıb. Mənbənin sözlərinə görə, "HyperOS"un sınaq versiyasında sistem proqramlarında reklamı bir kliklə aktivləşdirməyə və ya söndürməyə imkan verən keçid var. Hələlik, "Xiaomi" 13 Pro və bəzi digər şirkət smartfonlarının sınaq proqramında olan istifadəçiləri bu şəkildə reklamı söndürə bilərlər.

"HyperOS", "Redmi" və "Poco" altbrendləri də daxil olmaqla, şirkətin smartfon, planşet və digər qadcetlərində MIUI-ni ("Mi User İnterface") əvəz edən "Xiaomi" mikroproqramıdır.

***XQ***




İdman




# Fransada "Paris-2024"lə bağlı yeni tətil çağırışı

**Paris Olimpiadası ərəfəsində Fransanın paytaxtındakı hava limanları ("Orly" və "Roissy-CDG") menecerlərinin 4 həmkarlar ittifaqı tətilə çağırış edib.**

İş şəraitinin pisləşməsinə qarşı olan həmkarlar ittifaqları daha min nəfərin işə götürülməsi təklifinin reallaşmasını tələb edirlər. Bununla yanaşı, onlar Olimpiya və Paralimpiya Oyunları zamanı iş günlərinə zəmanət verilməsini istəyirlər. Paris aeroportları qrupunun ("Aeroports de Paris-ADP") 4 həmkarlar ittifaqı (CGT, CFDT, FO və UNSA) iyulun 17-nə tətil elan edib. ADP qrupu baş direktorunun yalnız işçilərin bir hissəsinə bonus ödəmək qərarından həmkarlar ittifaqları təmsilçiləri təəssüfləndiklərini bildiriblər.

Mətbuata açıqlamada qeyd edilir ki, baş direktorun tələblərə laqeyd yanaşması yekdilliklə pislənilir. CGT, CFDT, FO və UNSA həmkarlar ittifaqları bildiriblər ki, onlar tətil elan etməyə məcburdurlar. Çünki ADR-in baş direktorunun inadkar imtinası, onun birləşmiş həmkarlar ittifaqları tərəfindən irəli sürülən ultimatumu lazımi səviyyədə qiymətləndirməməsi bu addımı atmağa məcbur edir.

***L.QURBANOVA***
***XQ***

# Olimpiya komandamızın posteri təqdim edilib

**Fransanın paytaxtı Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarında Azərbaycanı təmsil edəcək komandanın posteri və yarış müddətində istifadə ediləcək həştəqləri (#teamaze #bizsizeinaniriq #haydiazerbaycan #haydibizimkiler) təqdim olunub.**




Bu barədə Gənclər və İdman Nazirliyinin mətbuat xidməti paylaşım edib.

Xatırladaq ki, iyulun 26-dan avqustun 11-dək Parisdə keçiriləcək XXXIII Yay Olimpiya Oyunlarında 48 idmançımız 15 idman növü üzrə 17 proqramda ölkəmizi təmsil edəcək.

***L.AZAD***
***XQ***

Sağlamlıq

# Özü kiçik olsa da...

*Mədəaltı vəzi necə qoruyaq?*

***Mədəaltı vəzin bir sıra problemlərində və pankreatit zamanı narahatlığı necə aradan qaldırmaq olar? Mütəxəssislərin fikrincə, özü çox kiçik olsa da, funksiyası zəruri olan bu orqanın xəstəliyində dərman müalicəsi ilə birlikdə pəhrizə də xüsusi diqqət yetirmək və gündəlik menyuya aşağıdakı məhsulları daxil etmək faydalıdır.***



1. Yağsız dana, dovşan, hinduşka, toyuq əti.
2. Arpa, mannı və düyü sıyıqları.
3. Sərt buğda unundan hazırlanmış makoron.
4. Süd-qatıq və digər ağartı məhsulları.
5. Tərəvəzlər: kartof, kabak, çuğundur, kök.

Dietoloqlar bildirirlər ki, bu qidalardan gündəlik rasionda istifadə etməklə mədəaltı vəz problemlərinin irəliləməsinin qarşısını almaq mümkündür.

***Z.HÜSEYNLİ***
***XQ***

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

*"Sosial iş" fakültəsində dekan vəzifəsini tutmaq üçün*

Müsabiqə Elan Edir

Dekan vəzifəsi üçün müsabiqədə iştirak etmək istəyənlərin fakültənin profilinə uyğun ən azı 5 il elmi-pedaqoji təcrübəsi və peşə-ixtisas hazırlığı, elmi ad və elmi dərəcəsi olmalıdır. Sənədlər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 saylı qərarı ilə təsdiqlənmiş qaydalara əsasən elan dərc olunandan bir ay müddətinədək akademiyaya təqdim edilməlidir.

Telefonlar– 563-13-07, 563-15-40.

Ünvan– AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 142 (30546) 10 iyul 2024-cü il, çərşənbə

## “Mbappe kapitan olmağa layiq deyil”

**Fransa millisinin sabiq futbolçusu Emmanuel Petit millinin hücumçusu Kilian Mbappeni kəskin tənqid edib.**



“COPE” portalının yazdığına görə, Petit deyib: “İndiki məqamda o, kapitan adına layiq deyil. Çünki Kilian kifayət qədər məsuliyyət daşımır. O, Avro-2024-ün yarımfinalında yalnız ona görə oynayacaq ki, rəqib İspaniya millisi olacaq. Əks halda, mən onu ehtiyat oyunçular arasında otuzdurardım”.

## Yarımfinala biletlər ucuzlaşır

**Almaniya millisinin Avro-2024-ü tərk etməsindən sonra İspaniya və Fransa arasında Münhen yarımfinal oyununa tamaşaçı marağı kəskin azalıb. Hazırda bilet satış platformasında nominal dəyəri 900 avro olan “Prime” kateqoriyalı biletlər 350 avroya, “Hospitality Club” kateqoriyalı biletlər 1200 avro deyil, 389 avroya, birinci kateqoriyalı biletlər isə 600 avro yox, 200 avroya satılır.**



UEFA-nın saytında üçüncü kateqoriyadan olan ən ucuz biletlər istisna olmaqla, bütün kateqoriyalar üzrə qalanını nominal qiymətlə əldə etmək olar. Onlar üçün qiymətlər əvvəlcə, 1/8 və 1/4 final matçları ilə müqayisədə iki dəfə artırılmışdı.

## Orsato finalı idarə etməyəcək

**"Sky sport" və "Corriere dello sport"un məlumatına görə, italiyalı hakim Daniele Orsatonun ölkəsinin komandası vətənə qayıdıb.**



Məhz bu hakim Almaniyada keçirilən Avropa çempionatının final oyununu idarə etməyə əsas namizəd hesab olunurdu. İndi əsas iddiaçılar polşalı Şimon Marçiniak və fransız Klement Turpendir. Ölkəsinin komandası yarımfinalda zəif çıxış edərsə, Turpen baş hakim təyin oluna bilər.

Avrofutbol – 2024

# Sautgeyt və Deşamın strategiyası futbolu gözdən salır

**Almaniyada keçirilən Avro-2024 artıq finiş xəttinə çatmaqdadır. Çempionatda nələr baş vermədi? Turnirə evsahibliyi edən ölkənin millisi artıq mübarizədən kənarda qalıb. Lakin ən maraqlısı, həmişəki kimi, hələ qarşıdadır.**



Dünən Münhen şəhərində Avropa çempionatının yarımfinalında epik bir qarşılaşmanın – İspaniya və Fransa milli komandalarının oyununun şahidi olduq. Avropa çempionatları tarixində pley-off mərhələsində Fransa və İspaniya arasında baş-başa qarşılaşmalar həmişə turnir üçün həlledici olub və qalib əsas kuboku qazanıb. Bu, 1984-cü ildə, Fransa finalda, 2000-ci ildə Fransa 1/4 finalda daha güclü olanda və 2012-ci ildə İspaniya 1/4 finalda qalib gələndə məhz belə olub.

Amma hələ ki, bu turnirdə “La roho” daha əla görünür – ispanlar turnirin 5 görüşünün hamısında qalib gəliblər. Bu turnirdə komandaların heç biri belə bir nəticə göstərməyib. İspanlar vurulan qollarda (11), qapıya zərbələrdə (102) və topa sahib olmaqda da (230) liderdir. Bu, de la Fuentenin yetirmələrinin müdafiədə və hücumda necə yaxşı oynadığını açıq şəkildə göstərir. İspan baş məşqçi 1/4 finalda Almaniya üzərində qələbə qazandıqdan sonra qürurla deyib: "Mənim oyunçularım möhtəşəmdirlər. Əlbəttə, hər zaman inkişaf üçün yer var, lakin biz onların qürurunu, ustalığını və fədakarlığını şübhə altına ala bilmərik."

İspanların yolunda çətin komanda dayanıb. Fransa komandası beş matçdan dördündə qapıları bağlı saxlayıb. Üçrənglilər səkkiz il ərzində böyük bir turnirdə dördüncü finala yüksəlmək arzusu ilə meydana çıxırdılar. Didye Deşam Portuqaliya üzərində qələbədən sonra deyib: "Biz yarımfinaldayıq, lakin bu mərhələlərə öyrəşmişiksə belə, bunu təbii qəbul etməməliyik.”

Ümumilikdə, ispanlar Fransa ilə qarşılaşmada favorit hesab edilirdilər. Buna səbəb isə təkcə “Furiya Roho”nun güclü olması deyildi, Amma bu da əsas məqamdır. Səbəb həm də bu Avropa çempionatında fransızların hücumda əldə etdiyi nəticələrdir. Daha doğrusu, onların yoxluğundadır. Son beş matçda onlar üç qələbə və iki heç-heçə əldə edərək cəmi üç qol vurublar. Portuqaliya millisi üzərində son qələbə isə əsas və əlavə vaxtda qolsuz heç-heçədən sonra penalti seriyasında olub.

Maraqlıdır ki, bu matça qədər Didye Deşamın komandası oyundan heç vaxt bir qol vura bilməyib. Rəqiblərin iki avtoqolu və Kilian Mbappenin 11 metrlik nöqtədən bir dəqiq zərbəsi “xoruzları” yarımfinala çıxarıb. Yeri gəlmişkən, ulduz forvardın özü də elə xoş təsir bağışlamayıb. Meydanda 376 dəqiqədə cəmi bir qol, prinsipcə Avropa çempionatında ilk dəfə idi. Unai Simonu belə oyunla qorxutmaq çox çətindir.

Bu səbəbdən də hədəfə zərbələrdə İspaniya komandasının qələbəsinə üstünlük verilirdi. İspanlar, prinsipcə, fransızlardan daha tez-tez çərçivəyə düşürlər (7 – 4). Amma unutmayaq ki, onların qrupunda İtaliya və Xorvatiya var idi. Bundan əlavə, onlar 1/4 finalda almanlardan daha dəqiq idilər, baxmayaraq ki, daha az zərbə endirdilər. Bir sözlə, onlar güclü rəqiblərlə qarşılaşmalarda şanslarından necə istifadə etməyi bilirlər.

Beləliklə, İspaniya tam qaydadadır, ona görə də yarımfinalda yenə də ən yaxşısını göstərməli idi. Karvaxal və Le Normandın diskvalifikasiyası, həmçinin Pedrinin zədələnməsi narahatçılıq yaratmamalı idi. Üçüncü turda de la Fuentenin yetirmələri ikinci heyətlə belə qalib gəlməyə qadir olduqlarını göstəriblər.

Bu rəqibi saxlamaq, hətta Fransa kimi milli komanda üçün də, demək olar ki, mümkün hesab edilmirdi. Eynən belə bir vəziyyət, hollandiyalıları cansıxıcı futbola çəkəcək İngiltərəyə də aiddir, lakin heç də hər şeyin plana uyğun getməyəcəyinə hazır olmaq lazımdır.

İspaniya və Hollandiya bu turnirdə yeganə komandalardır ki, minimal üstünlüyü qoruyaraq, rəqib meydanında dağıtmağa deyil, yaratmağa və kreativ olmağa çalışırlar.

Avropa çempionatının yarımfinallarını çox şeyin asılı olduğu üslubların toqquşmasına çevirən məhz budur: minimal səylə, eləcə də futbolun əyləncəsindən tamamilə imtina etməklə qələbəyə nail olmağa çalışan Sautgeyt və Deşamın strategiyasının uğuru növbəti Avropa və ya Dünya Kubokunda yüksək nəticə əldə etmək istəyən hər kəs üçün çox təhlükəli nümunə olacaq.

Komanda – xarakter, temperament və emosiyalar baxımından həmişə öz məşqçisinin davamıdır. Bu çempionatda İngiltərə və Fransa komandaları bir-birinə güzgü əksləri kimi görünürlər və bir-birinin davamı təsiri bağışlayırlar. Deşam və Sautgeyt futbol üslubu olaraq “primitivizmi” seçiblər. Onlar bunun da “şöhrət” gətirdiyini sübut edə biliblər. İndi bu komandalar Berlində keçiriləcək finaldan bir oyunluq məsafədədirlər.





Amma hər xətdə dünya səviyyəli ulduzların olması hələ möhtəşəm futbol demək deyil. Komandada Mbappe, Bellingem, Dembele və Saka kimi istedadlar onları müstəsna edir.

Əslində, bu məşqçilərin qol vuran hücumçulara ehtiyacı yoxdur. Baxın, Fransanın çempion olduğu Rusiyada keçirilən dünya çempionatında Olivye Jiru hədəfə bir dəfə də olsun zərbə endirmədi. Almaniyada o, əvəzedici heyətdən meydana çıxanda belə özünü narahat hiss etmir. Startda olanlar da eynən onun kimi.

Sautgeyt üçün İngiltərənin ən yaxşı bombardiri Harri Keynin rəqibin cərimə meydançasında oynamasından daha çox müdafiə və keçid xətlərində oynaması daha vacibdir. Qol vurmadılarsa, bu, qorxulu deyil, əgər rəqibə aman verməyiblərsə, bu, əladır. Yaxşı, futbol qol vurmaqdan ibarətdir, yoxsa müdafiə olunmaqdan?

Fransa bir qol vurmadan belə yarımfinala yüksəlib. İngiltərə ardıcıl iki matçda hədəfi yalnız 80-ci dəqiqədən sonra vurub. Vacib olan daha bir məqam - Deşam və komandası beş matçda son dərəcə az top buraxdı. Yalnız bir qol, onu da Levandovski penaltidən vurdu. Sautgeyt isə qapısında üç qol görüb. Buradan belə bir ritorik bir sual doğur: "Pis oyun nəticə verirsə, bu, nə qədər pisdir?"

Yarımfinala çıxmaq komandaya münasibəti və onun ətrafındakı ritorikanı dəyişir. Amma şübhə yoxdur ki, Deşam və Sautgeyt çempionatın ən yaxşı komandalarına qarşı matçlarda da prinsiplərini dəyişməyəcəklər. Tam əksinə. Belə demək mümkünsə qapalı oyunun kulminasiyasını görəcəyik. İspaniya və Hollandiya topu, nəzarəti, təhlükəli məqamları və bütün mümkün “xG-lər”i öz sərəncamlarına götürəcəklər. Bəli, onlar axtarışda olacaqlar, gözəl məqamlar yaradacaqlar, hamını ayaqda saxlayacaqlar. Yəni azarkeşləri üçün həqiqi futbol deyilən “tamaşanı” oynayacaqlar. Fransa və İngiltərə isə səbirimizi imtahana çəkəcək və bizə istehza edəcək.

Qaldı, Sakanın İsveçrəyə, Bellingemin isə Slovakiyaya vurduğu qolların vaxtı və dəqiqliyinə, bu, britaniyalılara inamdan çox qələbə biomeydanı verdi: lazım olanda qol vurub qalib gələcəklər. Fransızlara gəldikdə isə onlar Lujnikidəki qələbədən sonra uzun müddətdir ki, bu üsluba sadiqdirlər. Niyə də tələsməli və təlaşa düşməlidirlər ki?

İspaniyaya gəldikdə isə, etiraf edək ki, son bir neçə ildə ən çox diqqət çəkən ispan məşqçilik hekayələri veteranlarla bağlı olub. Əvvəlcə ömrü boyu kiçik komandalarla işləyən Xose Luis Mendilibar yeddinci onilliyində Avropa yarışlarında debüt etmək imkanı qazandı. Nəticə heyrətamiz idi. Mövsüm ərzində “Sevilya”, sonra “Olimpiakos”u qəbul edərək, Avropa Liqası və Konfrans Liqasının qalibi olub.

İndi isə 63 yaşlı Luis de la Fuentenin adı dillər əzbəri olub. 1980-ci illərdə əfsanəvi Bilbaonun “Atletik” komandasını İspaniya çempionu və ölkə kubokunun qalibi edən de la Fuenta ümumiyyətlə, məşqçilik sexində təvazökar bir işçidir. O, “Atletik” və “Sevilya”nın aşağı divizionlarında və gənclərdən ibarət komandalarda çalışıb və La liqada şans qazananda da “Alaves”in sükanı arxasında cəmi üç ay qalıb. Lakin bütün böyük uğurların hekayələri adətən belə başlayır.

Təbii ki, hər uçuşun bir başlanğıc nöqtəsi var. De la Fuente üçün bu,



milli komandalara keçiddir. 11 il əvvəl o, U-19 kateqoriyasında İspaniya yığmasının başına keçib. Təyin olunduqdan iki il sonra o, Avropa çempionluğunu qazanaraq ilk titulunu alıb. Finalda ispanlar Rusiyaya qalib gəliblər.

Açığı, indiki komandanın prototipi o vaxt da görünürdü. U-19-da de la Fuentenin heyətində Rodri, Merino və ehtiyat oyunçular skamyasında oturan Unai Simon vardı. Məşqçi gənclər komandasına Dani Olmo, Oyarzabal və Fabian Ruizi əlavə etdi. Amma Malkomun qolu hər şeyi məhv etdi və qızıl Braziliyaya getdi.

Əldə olunan təcrübə, məşqçinin dərhal milli komanda ilə Millətlər Liqasını qazanmasına böyük kömək oldu. De la Fuenteyə yaxın olanların dediyinə görə, onun həmişə iki arzusu olub. Milli komandaya və uşaqlıqdan pərəstiş etdiyi “Atletik”ə məşqçilik etmək. 2022-ci il dünya çempionatındakı uğursuzluqdan sonra, hələ qalmaqala düşməyən Kral Futbol Federasiyasının prezidenti Luis Rubiales qərarını verdi: “Yeni layihəni başlamağın vaxtıdır və ona Luis de la Fuente rəhbərlik edəcək”.

Luis Enrike və komandasının Qətərdəki Dünya çempionatında fiaskosundan sonra yeni məşqçi de la Fuente İspaniya millisini çalışdırmağa başladı. Amma o, heç vaxt sələfinə qarşı çıxmadı. Əksinə, de la Fuente yeni vəzifəsində keçirdiyi ilk mətbuat konfransında adaşı Luislə çox yaxşı münasibətləri olduğunu vurğulayaraq, Enrikenin gördüyü işlərə hörmətlə yanaşmağı xahiş etdi.

Buna baxmayaraq, adaş Luislərin işə yanaşmaları bir-birindən fərqlənir. Karyerasının çox hissəsini 4-2-3-1 sxemi ilə keçirən de la Fuente bir anda Enrikenin sevimli 4-3-3 sxeminə keçdi. Ancaq hazırkı məşqçi yalançı “doqquzluqlar”ın tərəfdarı deyil və heyətində klassik mərkəz hücumçusuna üstünlük verir. O, iki dayaq yarımmüdafiəçidən istifadə etməyi xoşlayır, həm də bəzən rəqibin meydandakı sxeminə uyğun sxem qurur. Biz bunu Xorvatiya ilə oyunda gördük. Elə ki, topa sahiblikdə ümumi üstünlük heç nə vermədi, bundan sonra ispanlar topu rəqibə verdilər və onları meydanın özlərinə aid yarısına şirnikləndirərək uğur qazandılar.

“Mən istedadın müdafiəçisiyəm, lakin istedad həmişə komandaya kömək etməlidir. Mən futbolçunun güclü tərəflərini məhdudlaşdırmağı sevmirəm ki, bu üstünlükləri nümayiş etdirə bilsinlər. Amma bu azadlıq kollektiv oyunla əlaqələndirilməlidir. Mən hər bir oyunçudan ən yaxşını almaq istəyirəm”. De la Fuente hələ ki, bunu meydanda göstərməyi bacarır. Fransa ilə qarşılaşmada da məhz buna söykənib komandasını meydana buraxmışdı. Komandası isə öz ustalığı, yaradıcı oyunu ilə yenə azareşlərini ayağa qaldırmağı bacarırdı.

Ən yaxşı müdafiəyə qarşı ən yaxşı hücum nə vəd edirdi? Futbol tarixindən məlumdur ki, hər dəfə Avropa çempionatlarının pley-off mərhələsində İspaniya və Fransa qarşılaşanda kuboku qalib evinə aparıb. Bu yenə baş verəcəkmi?

Komandaların gücləri təxminən bərabərdir, lakin İspaniyanın cəsarətlə oynadığını və hücum futbolu nümayiş etdirməkdən çəkinmədiyini nəzərə alsaq, bütün bunlar de la Funetenin komandasına irəliləməyə imkan verəcək. Fransa hələ öz potensialını göstərə bilmir. Mbappe oynamayanda isə ümumiyyətlə heç nə göstərə bilmir. İndi o, sıradadır, bəzən rəqiblərini aldadıb keçir, amma maska mane olur. Açıq-aydın bu Mbappen öz əslinə bənzəmir. Hətta hücumu başa vuranda da, həmişə olduğu kimi, məqsədyönlü və güclü şəkildə deyil, şansına ümid bəsləyib vurur.

Bu dəfə şans onun tərəfində olacaqmı? Bunu indi görəcəyik.

***Səhifəni hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

Hava

## Aranda yağmursuz, dağlarda yağış və duman

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 10-da Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 21-26°, gündüz 32-37° isti olacaq.***

Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 35-40 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 34-39°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2955
SİFARİŞ 1517
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00